# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30 OKTYABR 2019-cu il

№ 192 (4090)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN QOŞULMAYAN ÖLKƏLƏRİN BAKI ZİRVƏ SƏNƏDİNƏ DÖZƏ BİLMƏDİ - İŞĞALÇI BÖYÜK TƏLAŞDA...

səh. 8



səh. 2

## Düz 50 ildən sonra Bakı ikinci dəfə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edəcək - Prezidentin istəyi baş tutdu, 7 min qonaq gələcək...

Prezident bölgə əhalisi üçün ev turizminin müstəsna əhəmiyyətindən danışdı

səh. 12

Prezident Azərbaycana valyuta gətirəcək bir sahəni də göstərdi - qızılgül yağı...

səh. 11

Təcavüzkar siyasətin mahiyyəti açıldıqca Ermənistan rəhbərliyi beynəlxalq media müstəvisində də pis vəziyyətə düşür

səh. 9

Ermənilərin çox qorxduğu qırıcı təyyarələr Azərbaycana gəlir...

səh. 6

70-dən yuxarı yaşlı məmur və deputatların Prezidentin tövsiyəsinə reaksiyaları...

səh. 5

Ermənistan müşahidəçilikdən Qoşulmayanların üzvlüyünə keçmək istəsə - 120 dövlətin müqaviməti...

səh. 8

Azərbaycanın geosiyasi və geoiqtisadi mövqelərini gücləndirən yeni amillər...

səh. 7

Saxta əlil çıxarılmış 2500 fakta görə nazirliyin köhnə rəhbərliyinin hüquqi məsuliyyəti...

səh. 15



**Azərbaycanda Prezidentdən xəbərsiz yol tikinti-söküntüsünə qərar verənlərin məqsədləri...**

səh. 11



**Paşinyanın «dinamik inkişaf və qazın qiyməti» taktikası - Rusiyanın gizli şantajı...**

səh. 7

**ABŞ-ın Azərbaycanla ticarət uyğunluğu sənədinə təftişçi münasibəti - işdə siyasi motiv ehtimalları...**

səh. 5

səh. 3

Vüqar Səfərli qərəzli iddialarla dövlətin media siyasətini hədəf alanlara arqumentlərlə cavab verdi



səh. 4

Mediada islahat reallığı... Və islahata dəstək populizmi...



səh. 10

"20 il əvvəl bu qəzeti açanda bizim tutduğumuz xətdə bir boşluq var idi"



səh. 13

Azərbaycana dollar axını və manatın bu dəfə revalvasiya təhlükəsi...



səh. 15

Məşhur holland pendirlərində qorxulu virus tapıldı - Azərbaycan bazarında nələr olacaq...



# Düz 50 ildən sonra Bakı ikinci dəfə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edəcək - Prezidentin istəyi baş tutdu, 7 min qonaq gələcək...

**Prezident İlham Əliyev oktyabrın 29-da "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul edib.**

Bu qələbənin əhəmiyyətini vurğulayan Prezident İlham ƏLİYEV deyib:

-Bir neçə gün bundan əvvəl Vaşinqtonda keçirilmiş Beynəlxalq Astronavtika Konqresində növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, çox böyük hadisədir, bizim böyük qələbəmizdir və bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bilirəm ki, "Azərkosmos" və digər dövlət qurumları bu Konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstərmişlər.

Bu Konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, Konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir. Növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir. Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik, növbəti Konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Bu qələbə bir daha ona görə önəmlidir ki, bizim çox güclü rəqiblərimiz var idi. Dörd şəhər Konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni, həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var. İctimaiyyətin diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. O da odur ki, 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında keçirilmişdir. Cəmi bir dəfə, o da Bakı şəhərində. O vaxt ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səylər göstərmişdir ki, Sovet İttifaqında bu Konqres məhz Bakıda keçirilsin. Hesab edirəm ki, 2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir. Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir.



Növbəti 2-3 il ərzində konqresin keçirilməsi üçün böyük təşkilati işlər aparılmalıdır. Biz təqribən 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir. Ona görə vaxt gələndə Konqresin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılacaq və əlbəttə ki, əsas hazırlıq işlərini "Azərkosmos" öz üzərinə götürəcəkdir. Beləliklə, biz növbəti böyük uğura imza atdıq. İndi Konqres zamanı aparılan müzakirələr və gedən proseslər haqqında məlumat verin.

Prezident İlham ƏLİYEV deyib: Bəli, bu çox böyük hadisədir. Bir daha demək istəyirəm ki, biz bu hüququ çox gərgin mübarizədə əldə etmişik. Bu bizim ölkəmizin növbəti böyük qələbəsidir. Əminəm ki, Konqres Azərbaycanda ən yüksək səviyyədə keçiriləcək, minlərlə xarici qonaq ölkəmizə səfər edəcək, o qonaqlar ki, onlar bu gün dünyanın texnoloji gündəliyini müəyyən edir. Əlbəttə ki, bu həm bizim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir və bununla bərabər böyük fürsətdir. Yəni, biz bu Konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməliyik. O mənada ki, beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır.

Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Əlbəttə ki, müasir texnologiyaların inkişafı bizim gündəliyimizin əsas məsələlərindən biridir. Bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır. O ölkələr ki, bu texnologiyaları icad edir, yaxud da ki, onları tətbiq edir, o ölkələr daim uğur qazanacaqlar. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır. Məhz buna görə Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biridir. Bundan sonra da kadr hazırlığı, texnoloji inkişaf, müasir texnologiyaların Azərbaycana gətirilməsi istiqamətində əlavə addımlar atılacaq. Siz də qeyd etdiyiniz kimi, hazırda artıq böyük biznes də bu sahəyə çox böyük maraq göstərir. Əslində inkişaf etmiş ölkələrdə müasir texnologiyalar, o cümlədən astronavtika sahəsində əldə edilmiş uğurlar böyük biznesin dəstəyi ilə baş verir. Biz elə etməliyik ki, dünyanın aparıcı biznes strukturlarından hansıların rəhbərləri Azərbaycanda keçiriləcək Konqresdə iştirak edəcək, onlar bu tədbirə qədər ölkəmiz haqqında geniş məlumata malik olsunlar. Ona görə növbəti 2-3 il ərzində sizin və digər aidiyyəti qurumların rəhbərləri gərək bu şirkətlərlə sıx təmaslar qursunlar.

Konqresə hazırlıq dövrü elə olmalıdır ki, buraya gələcək qonaqlar artıq bizimlə müəyyən müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olsunlar. Ona görə Konqresin keçirilməsi çox önəmli hadisədir. Ancaq Konqresdən sonrakı dövr də az əhəmiyyət daşımır. Çünki Konqresdən sonrakı dövr Azərbaycanda yeni texnoloji inkişaf dövrü olmalıdır. Əlbəttə ki, genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, Konqres ən yüksək səviyyədə keçirilsin.

# XİN-dən Ermənistana sərt cavab - Yalnız Azərbaycan hökuməti Dağlıq Qarabağ bölgəsi əhalisinin təhlükəsizlik təminatçısıdır



**Yalnız Azərbaycan hökuməti və ölkənin Konstitusiyası dövlətin ərazisində yaşayan bütün əhalinin, o cümlədən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin əhalisinin təhlükəsizlik təminatçısıdır və bundan sonra da belə olacaq.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.

Bəyanatda daha sonra bildirilir:

"Bu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşünün Yekun Sənədi və bu yüksək səviyyəli tədbirdə iştirak edən 159 nümayəndə heyəti birmənalı şəkildə Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan qəti mövqeyini təsdiq etdi. Belə ki, bu mövqe bundan öncə də Qoşulmama Hərəkatının münaqişə ilə bağlı mövcud olan "münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyi" çağırışını təkrar edərək, bu məsələdə daha irəli addım atıldı və "güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyi vurğulanır və təsdiq edilir ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq və bu ərazilərdə iqtisadi fəaliyyət də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcəklər" müddəası yekdilliklə qəbul edildi. BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli məlum dörd qətnaməsində Azərbaycan ərazilərinin işğalına dərhal, tam və qeyd-şərtsiz son qoyulması ilə bağlı əks olunan mövqe, beynəlxalq təşkilatların bu xüsusda qəbul etdikləri digər çoxsaylı qərar və qətnamələrə əlavə olaraq, Ermənistanın siyasətinin işğalçı mahiyyəti növbəti dəfə və dünya ictimaiyyətinin üçdə ikisini təşkil edən Qoşulmama Hərəkatı tərəfindən tanındı.

Beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də Qoşulmama Hərəkatının təməl prinsiplərini kobudcasına pozaraq Azərbaycana qarşı qanunsuz zor tətbiq edən və ölkənin ərazi bütövlüyünü pozan, hazırda Azərbaycanın ərazilərinin beşdə birini hərbi işğal altında saxlayaraq bu ərazilərin yerli azərbaycanlı əhalisinə qarşı qanlı etnik təmizləmə həyata keçirən, Xocalı soyqırımı kimi mülki əhaliyə qarşı qətliamı törədən və hazırda öz destruktiv mövqeyi və anneksiya siyasəti ilə münaqişənin danışıqlar yolu ilə həllinə manea törədən Ermənistanın nə beynəlxalq hüququdan, nə də sülh prosesi öhdəçiliyindən danışmağa haqqı var. Bu gün beynəlxalq ictimaiyyətin tanıdığı və həllini tələb etdiyi bir həqiqət var; o da Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının Ermənistan tərəfindən işğal olunduğu və bu işğala son qoyularaq münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması tələbindən ibarətdir. Bunu görmək istəməyən yeganə ölkə isə elə işğalçı ölkə Ermənistandır.

Digər beynəlxalq təşkilatlarda olduğu kimi, Qoşulmama Hərəkatının da mövqeyi məhz beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, ATƏT-in Helsinki Yekun Aktına, Hərəkatın təməlini təşkil edən Bandunq prinsiplərinə əsaslanır. Belə ki, bütün hallarda qanunsuz güc tətbiqi, ölkələrinin beynəlxalq tanınmış sərhədlərinin və ərazi bütövlüyünün pozulması qəti şəkildə pislənilir. Təcavüzkar siyasəti ilə bölgədə sülh və təhlükəsizliyə təhdid törədən Ermənistanın iddia etdiyi kimi "təhlükəsizlik təminatçısı" qismində çıxış etməsi üçün, ilk növbədə ərazi iddialarına son verməsi və mövcud təhlükəsizlik mühitini dərk etməsi gərəkdir. Yalnız Azərbaycan hökuməti və ölkənin Konstitusiyası dövlətin ərazisində yaşayan bütün əhalinin, o cümlədən işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin əhalisinin təhlükəsizlik təminatçısıdır və bundan sonra da belə olacaq".

# Vüqar Səfərli qərəzli iddialarla dövlətin media siyasətini hədəf alanlara arqumentlərlə cavab verdi

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli "Trend"ə müsahibəsində rəhbəri olduğu qurumun fəaliyyəti ilə bağlı son günlər səslənən bəzi iddialara münasibətini bildirib.**

*"Bizi ittiham edənlər hansı nüfuzu, tirajı olan və cəmiyyətdə tanınan qəzetin adını çəkə bilərlər ki, bu gün Fondun maliyyə yardımından kənarda qalıb? Ümumiyyətlə, Fondun dəstəyindən kənarda qalan ciddi imicli ictimai-siyasi qəzet varmı?"*



**- Vüqar müəllim, son günlər bəzi saytlarda və sosial şəbəkədə Fondun guya cəmiyyətə təsir imkanları, habelə nüfuzu olmayan qəzetlərə maliyyə yardımı ayrılması ilə bağlı ittihamlar səslənir...**

- Birmənalı şəkildə bəyan edirəm ki, bu iddialar tamamilə qərəzli və əsassızdır. Fondun "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" və Nizamnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərindən biri kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsidir.

Maliyyə yardımı ayrılmasının şərt və meyarları ilə bağlı qərarlar Fondun Müşahidə Şurasının iclaslarında, kollegial və şəffaf şəkildə qəbul olunur. Fond il ərzində maliyyə yardımı müsabiqələri elan edir, maliyyə yardımının ayrılması şərtləri və meyarları müsabiqə elanında dəqiqliklə göstərilir. Həmin şərt və meyarlara əsasən, yayımı, tirajı və dövrülüyü müvafiq tələblərə cavab verən ictimai-siyasi qəzetərə maliyyə yardımı ayrılır.

**Hazırda Fondun maliyyələşdirdiyi 25 ictimai-siyasi qəzetin hər biri həmin şərtlərə cavab verən, uzun illər ərzində fəaliyyət göstərən, cəmiyyətdə tanınan nəşrlərdir. Bizi qərəzli şəkildə ittiham edənlər hansı nüfuzu, tirajı olan və cəmiyyətdə tanınan qəzetin adını çəkə bilərlər ki, bu gün Fondun maliyyə yardımından kənarda qalıb? Ümumiyyətlə, Fondun dəstəyindən kənarda qalan ciddi imicli ictimai-siyasi qəzet varmı?**

Əminliklə deyirəm ki, onlar belə bir qəzet adı çəkə bilməyəcəklər. Əgər əksini iddia edirlərsə, qərəzli və ümumi sözlərlə yox, konkret faktlar əsasında mövqelərini əsaslandırmalıdırlar. Bu gün Fonddan maliyyə yardımı almaq istəyən hər hansı qəzet elan olunmuş şərt və meyarlara cavab verməlidir.

Odur ki, "İctimai rəyə təsir imkanları və nüfuzu olmayan qəzetlərə maliyyə yardımının ayrılması" kimi qərəzli fikirlər yalnız Fonda qarşı qərəzli yanaşma deyil, həm də dövlətimizin media siyasətinin mahiyyətini gözdən salmağa xidmət edən məkrli kampaniyadır. Maraqlıdır ki, ictimai rəyə təsirdən danışanların özlərinin cəmiyyət arasında heç bir nüfuzu yoxdur, ictimai rəyə təsir imkanlarından isə heç danışmağa belə dəyməz.

**- Konkret olaraq Milli Məclisin deputatı Fəzail Ağamalı rəhbəri olduğunuz Fondu "ictimai rəyə təsir imkanları və nüfuzu olmayan" qəzetlərə maliyyə yardımı ayırmaqda ittiham edib...**

- Milli Məclisin deputatı Fəzail Ağamalının belə məsuliyyətsiz açıqlaması uzun illər fəaliyyət göstərən, Fondla əməkdaşlıq edən tanınmış qəzetlərə və onların kollektivinə qarşı hörmətsizlikdir. Bir daha təkrar edirəm - Fondun maliyyə yardımı ayırdığı qəzetlərin böyük əksəriyyəti 20 ildən çoxdur ki, fəaliyyət göstərən, ictimaiyyətin tanıdığı, oxucu auditoriyası olan nəşrlərdir.

Onu da bildirmək istərdim ki, maliyyə yardımı ayrılmış qəzetlər hər ayın yekununda Fonda tiraj, yayım və dövriyyələri ilə bağlı hesabat verirlər. Eyni zamanda, ayrılmış maliyyə yardımı müqabilində "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nda əksini tapmış 19 prioritet istiqamət üzrə dərc edilmiş yazılar Fonda təqdim edilir. Həmin yazılarda dövlətimizin daxili və xarici siyasəti, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan mütərəqqi dəyişikliklər, ordu quruculuğu, dövlətin gənclər siyasəti, demokratik inkişaf və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər dolğun əksini tapır.

Görünür, Fondun maliyyə yardımları barədə əsassız fikir səsləndirənlərin ölkədə mətbu nəşrlərin fəaliyyəti barədə məlumatlıq dərəcəsi də çox aşağıdır. Hesab edirəm ki, konkret fakta, dəlilə əsaslanmayan bu cür qərəzli fikirlər dövlətimizin müasir internet əsrində çap mediasının ayaqda durması və inkişafı yönümündə yürütdüyü siyasəti gözdən salmaq məqsədi daşıyır.

**- Fondun fəaliyyətində "şəffaflıq prinsipinə əməl olunmaması" barədə irəli sürülən ittihamlarla bağlı nə deyə bilərsiniz?**

- Qeyd etdiyim kimi, Fondun fəaliyyəti ilə bağlı bütün qərarlar Müşahidə Şurasının iclasında geniş müzakirə olunaraq qəbul edilir. Eyni zamanda, qəbul olunmuş qərarlar media vasitəsilə operativ olaraq ictimaiyyətə açıqlanır. Fondun daim yenilənən saytında onun fəaliyyəti ilə bağlı məlumatları əldə etmək mümkündür. Mütəmadi olaraq fəaliyyətimizlə bağlı hesabatlar veririk, bu hesabatlar mətbuatda da dərc olunur.

Təşkil etdiyimiz müxtəlif tədbirlərdə çoxsaylı jurnalist və nüfuzlu media orqanlarının rəhbərləri ilə yanaşı, Milli Məclisin deputatları, müxtəlif dövlət qurumlarının rəhbər şəxsləri, ziyalılar da iştirak edirlər. Bir sözlə, Fondun fəaliyyəti, gördüyü işlər, qəbul etdiyi qərarlar istər mətbuat, istərsə də cəmiyyət üçün tamamilə açıq və şəffafdır.

**- Vüqar müəllim, səslənən ittihamlardan biri də odur ki, guya bir neçə mənzili olan KİV əməkdaşlarına da mənzil verilib.**

- Jurnalistlərə mənzillərin verilməsi prosesi yaradılmış xüsusi komissiya tərəfindən şəffaf və ədalətli şəkildə həyata keçirilib. Komissiya mənzillərin bölgüsünün şərt və meyarlarını hazırlayaraq əvvəlcədən KİV-də elan edib. Sonrakı mərhələdə mənzilə iddialı KİV əməkdaşlarının sənədləri toplanaraq sistemləşdirilib və aidiyyəti üzrə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilib. Müvafiq araşdırmalardan sonra uzun illər jurnalistlka sahəsində çalışan, mənzilə ehtiyacı olan, habelə mediamızın inkişafında xidmətləri olan KİV əməkdaşlarının mənzillə təmin olunmasına qərar verilib.

Hər hansı ittiham, tənqidi yanaşma konkret fakta, dəlil-sübuta əsaslanmalıdır. Əks təqdirdə, bu ittihamlar, yumşaq desək, əsassız və subyektiv xarakter daşıyır. Ümumi sözlərlə jurnalistlərə mənzillərin verilməsi prosesinin obyektivliyinə və şəffaflığına kölgə salmaq cəhdləri heç zaman mümkün olmayacaq. Bu fikirlər dövlətimizin dünyada analoqu olmayan sosialyönümlü layihəsinin humanist mahiyyətinə xələl gətirmək, ictimaiyyəti çaşdırmaq məqsədi güdür.

**Belə absurd ittihamlarla çıxış edənlər indiyədək mənzillə təmin olunmuş hansı jurnalistin əvvəldən guya bir neçə evinin olmasına dair heç bir fakt göstərə bilməyiblər. Fəaliyyəti qərəz və böhtandan uzağa getməyən, Fondu və çap mediasını qərəzli şəkildə ittiham etməklə gündəmdə qalmağa çalışan bəlli bir qrupun qarayaxma və iftira kampaniyası cəmiyyətdə də ciddi qarşılanmır.**

# Mediada islahat reallığı... Və islahata dəstək populizmi...

## Azərbaycan mediasında islahatlar...

**Baxıram, son günlər mövzuya xüsusi maraq var. Əlbəttə, maraq olmalıdır. Ölkə Prezidenti cənab İlham Əliyev oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə məmurların bir-birilə rəqabətində mətbuatın, bir növ, alətə çevrildiyini bildirib, məsələnin yolverilməzliyini, hətta dözülməzliyini vurğulayıb.**

Ümumən, dövlət başçısının media ilə əlaqədar hər fikri, belə desək, "yol xəritəsi"dir. Əslində, onun istər kütləvi informasiya vasitələrimizin dünya standartlarına cavab verən fəaliyyət mahiyyətinin zəruriliyinə, istərsə də jurnalistlərimizin peşəkarlıqlarının artırılmasına, hazırlıq səviyyələrinin yüksəldilməsinə, xüsusən də xarici dil biliklərinin gücləndirilməsinə dair zaman-zaman bölüşdüyü düşüncələr böyük islahatçılıq motivinə köklənir. Prezident işıqlı, parlaq simadır, yenilikçidir, yeni fikirlərə açıqdır. O, jurnalistikanın qlobal informasiya məkanındakı çəkisini hər kəsdən daha gözəl qiymətləndirməyi bacarır. Yəni dövlət başçımızın media həssaslığının islahatçılıq ruhunu hər zaman hiss etmişik. Nəzərə alaq ki, ölkədə bu sahədə əldə edilən uğurların hərəkətverici qüvvəsi, ideya örnəyi də məhz cənab İlham Əliyevdir. Media ictimaiyyətinin nümayəndələri olaraq bizlər Prezidentin köməkçiləriyik. Köməyimiz təkliflər vermək, onların həyata vəsiqə qazanmasına dəstək göstərməkdir. Nə dərəcədə dəstəkləmişik, məsələ üzərində dayanmaq olar. Uğurlar kifayət qədərdir. Nöqsan və çatışmazlıqlar da yetərincədir. Mərkəzdə dayananı hamı görür. Onu tənqid etmək asandır. Heç də hesab etmirəm ki, hər kəs reallıqları düşünmülidir. Hansısa redaksiyada çalışan və həyat ehtiyaclarını qarşılamaqda çətinlik çəkən peşəkar jurnalistin özünün reallıqları və həqiqətləri var. O, üzləşdiyi durumu obyektiv qiymətləndirməkdə haqlı görünə bilər. Amma tənqid edənlərin hamısı onun vəziyyətini düşünərəkmi danışır? Əsla yox. Kimsə öz yerini isti saxlamaq istəyir, kimsə öz xidmətini təklif edib daha çox fayda götürməyi planlaşdırır və sair… Bizə at izinin it izinə qarışdığı cəmiyyət, bunun media cameəsindəki təzahürü lazım deyil. Bəli, illərdir obyektiv reallıqlardan danışırıq. Bildiririk ki, Azərbaycanda reklam bazarı, deməli olar, yox səviyyəsindədir, mediamız iqtisadiyyatımızda zəif təmsil olunur, qəzet yayımı sahəsindəki vəziyyət ürəkaçan deyil. Vaxtilə KİVDF də məhz ona görə yarandı ki, mətbuat bazar iqtisadiyyatının mənfi təsirlərindən sığortalansın. Müəyyən mənada sığortalandı, dirçəldi, inkişaf etdi. Yaşadığımız regionun KİV-i ilə hər hansı paralellər aparmaq niyyətindən uzağam. Əlbəttə, üstünük. Amma nəyə görə özümüzü zəiflərlə müqayisə etməliyik? Biz daha güclü olmalıyıq. Bəlkə KİVDF-ni ələ keçirib, qurumun hazırkı 4 milyonluq büdcəsini 40 milyona çatdırmağı düşünməklə vəziyyətdən çıxmaq mümkündür?! Mümkündür, amma bunun adı islahatmı olacaq? Bunu da demişik ki, ölkəyə gətirilən hazır çap məhsulları və qəzet kağızı üzərində 2016-cı ildən tətbiq edilməsinə başlanan əlavə dəyər vergisi mediamızın iqtisadi durumuna mənfi təsirini göstərməkdədir. Söhbət KİVDF-nin büdcəsinin təqribən yeddidə biri həcmində olan məbləğdən - 600 min manat vəsaitdən gedir. Hazırkı reallıqları nəzərə alsaq, bu heç də kiçik rəqəm deyil.

Sosial elan və reklamların KİV-də bölüşdürülməsinə dair beynəlxalq təcrübənin tətbiqini vacib saymışıq. Mətbuat Şurasının İdarə Heyətinin oktyabrın 18-də keçirilmiş iclasında səslənmiş təkliflərdən biri də bu idi ki, dövlət qurumlarının büdcələrində təbliğat məqsədilə ayrılmış vəsaitin həmin qurumların özlərinin təsis etdikləri KİV-ə deyil, ictimai rəyə real təsiri olan media orqanlarına yönləndirilməsi təmin edilməlidir. Burada söhbət daha böyük miqyaslı vəsaitdən gedir. Göründüyü kimi, əlverişli şəraitin yaradılması və qanunvericilik tədbirləri vəhdətdə olmalı, bir-birini tamamlamalıdır. Nəzərə alaq ki, biz KİV-ə dövlət dəstəyinin, ümumiyyətlə, göstərilmədiyi, hər bir media orqanının özünü müstəqil şəkildə təmin etməyi bacardığı mərhələyə çatmağı hədəfləyirik. Bu, hələlik mümkün deyil və buna görə günahkar yalnız KİVDF-dirmi? KİVDF tənqid edilir. Razıyam, iş olan yerdə tənqid də olmalıdır. Ancaq tənqid obyektiv xarakter daşısa, daha səmimi görünər. Qoy, jurnalistlər üçün tikilmiş binadan mənzil sahibi olan 400 nəfərdən biri desin ki, bunun müqabilində KİVDF-də kiminləsə bir stəkan çay içib? Hansı redaktor Fonddan yardım alarkən kiməsə bir manat pul qaytarıb? Hansı jurnalist müsabiqədə yer tutarkən aldığı mükafatı kiminləsə bölüşüb?

KİVDF "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun tədbirlər görür. Jurnalistlər üçün müsabiqələrin təşkili, KİV-in layihələrinin maliyyələşdirilməsi qurumun işinin ana xəttidir. Amma fəaliyyət dairəsi genişlənməlidir. Onlayn jurnalistikanı kənarda saxlamaq olmaz. Bu məqsədlə mediaya dövlət büdcəsindən ayrılan vəsaitin artırılmasını dəfələrlə təklif etmişik. Çox yaxşı olardı ki, biz jurnalistikanı imtiyazlı peşəyə çevirək. Məsələn, qardaş Türkiyədə jurnalistlər ictimai nəqliyyatdan pulsuz istifadə edirlər, çoxsaylı digər üstünlüyə də malikdirlər. Bu gün tənqidi mövqe tutanların bəziləri bir vaxtlar jurnalistlər üçün hər hansı imtiyazın tətbiqini doğru saymırdılar. Deyirdilər ki, bu, jurnalisti dövlətdən asılı hala gətirəcək. Ancaq düşünmürdülər ki, dövlətin jurnalistikaya qazandırdığı imtiyaz peşənin idarəçilikdəki mövqeyinin nəzərə alınmasından qaynaqlanır. Bu mövqenin əlahiddəliyi informasiyalı cəmiyyət quruculuğunun şərtidir. İnformasiyalı cəmiyyət isə şəffaflığın təminatıdır. Jurnalistlər dövlət tərəfindən evlə təmin olunurlarsa, bu, media təmsilçilərinin sosial müdafiəsini gücləndirməyə yönələn tədbirdir. Yeni mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına ona görə önəm verilir ki, cəmiyyətin informasiya tələbatının ödənilməsinin təminatçısı olan jurnalistlərin əməyi stimullaşsın, qayğıları azalsın, onlar daha məhsuldar işləsinlər. Bu gün islahatçılığı inkarçılıq kimi anlayan bəzi yaşlı-gənc dostlarımız zamanında buna da qarşı çıxırdılar. Halbuki, vaxtilə prosesin içərisindəydilər. Fikir bildirirdilər və fikirlərinə hörmətlə yanaşılırdı. Təklifləri həyata vəsiqə qazanırdı. Sonra nə oldu? Bu gün onları hərəkətə gətirən iddiaları özünü göstərməyə başladı. Ona görə də media sahəsində zaman-zaman tutulmuş islahat xəttini, prosesi məhz dövlətin apardığı üçün, tənqidə məruz qoyanların hazırda musiqilərini islahatçılıq notlarına kökləmələri şübhəlidir, səmimiyyətdən uzaqdır. İndi də, görünür, nəyəsə ümid edirlər...

Media sahəsində islahatlar getməlidir. Yuxarıda bunun ayrı-ayrı komponentlərini vurğuladım. Onu da bildirdim ki, mövcud istiqamətdə hazırda əldə edilən inkişaf Prezident İlham Əliyevin islahatçılıq xəttinin nəticəsidir. Əlbəttə, zaman dəyişir. Tələblər, baxışlar, idarəçiliyə münasibət dəyişir. İnsanlar da həmçinin. Cənab Prezident kimi vəzifəyə təyin edəcək, kimi azad edəcək, dövlət başçısı olaraq onun öz işidir, öz seçimi və iradəsidir. Ancaq kimlərsə islahata "sən get, mən gəlim" prinsipinə söykənərək baxmamalıdır. Bu, sağlam yanaşma və məntiq sayıla bilməz. Bəsit kampaniyaçılıqla guya islahata dəstək verdiklərini düşünənlərin kim olduqlarını hamı gözəl bilir.



Hamı dövlətin media siyasətinin həyata keçirilməsinə məsul şəxs olan Azərbaycan Respublikası Prezidentinin köməkçisi, ictimai-siyasi məsələlər şöbəsinin müdiri cənab Əli Həsənovu da yaxşı tanıyır. Onun istər Ulu öndər Heydər Əliyev ideyalarına, istərsə də Prezident İlham Əliyevin həyata keçirdiyi kursa sadiqliyi heç bir müzakirə predmeti ola bilməz. Ə.Həsənovun işinə prinsipial yanaşmasını gözü götürməyənlər hər zaman olub. Hazırda media ilə bağlı yuxarıda qeyd etdiyim bəsit kampaniyaçılıq təfəkkürünün başlıca hədəfi də odur. Sosial şəbəkədə profil yaradaraq cənab Həsənov barədə hədyanlar yayanlar, müxtəlif aşağılayıcı fikirlər irəli sürənlər, heç şübhəsiz, "sən get, mən gəlim" kimi kor məntiqin, yarıtmaz qisasçı baxışların tərəfdarlarıdır. Belələrinin söz və ifadə azadlığını, plüralizmi, şəffaflığı irəli sürən baxışları bəşəri dəyərlərlə uğursuz imitasiyadan başqa bir şey deyil. Bir daha bildirirəm ki, cənab Ə.Həsənov Azərbaycan dövlətinə, dövlətçiliyinə, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi kursa tam sadiqliyi ilə seçilən uğurlu və səriştəli iş icraçısıdır. Bu keyfiyyəti onun ictimai-siyasi xadim, parlaq dövlət adamı statusunu təsdiqləyən ən mühüm göstəricidir. Gəlin, ədalətli olaq. Dövlət idarəçiliyinə, medianın cəmiyyətdəki roluna, ümumən medianın mahiyyətinə obyektiv prizmadan yanaşaq. İslahata ən böyük dəstəyimiz elə bu olar.

***Əflatun AMAŞOV***
***Azərbaycan Mətbuat Şurasının sədri***

# ABŞ-ın Azərbaycanla ticarət uyğunluğu sənədinə təftişçi münasibəti - işdə siyasi motiv ehtimalları...

**Yayılan məlumata görə, ABŞ Prezident Administrasiyasının Ticarət Nümayəndəliyi Ofisi Azərbaycanın ticarət üstünlüklərinin ümumi sistemə uyğunluğunu nəzərdən keçirəcək. Buna səbəb kimi Azərbaycanda əmək hüquqlarının pozulması hallarının çoxalması göstərilir.**




***Fikrət Sadıqov:** "Ölkəmizin ticarət üstünlüklərinin ümumi sistemə uyğunluğunun yenidən nəzərdən keçirilməsinin arxasında müəyyən siyasi məqamlar var"*

Məlumat üçün qeyd edək ki, ticarət üstünlüklərinin ümumi sistemi ABŞ bazarına məhsulların və xidmətlərin idxalı zamanı ölkələrə müəyyən imtiyazlar verir. Azərbaycan ticarət üstünlüklərinin ümumi sistemini qiymətləndirmək üçün üçillik prosesə 2017-ci ilin oktyabr ayında cəlb olunub. Azərbaycanın ticarət üstünlüklərinin ümumi sistemə uyğunluğunun yenidən nəzərdən keçirilməsi heç də deyildiyi kimi, əmək hüquqlarının pozulması hallarının çoxalması ilə bağlı deyil. Çox güman ki, bunun arxasında müəyyən siyasi motivlər dayanır. Nəzərə almaq lazımdır ki, ABŞ-ın Azərbaycandakı Səfirliyi 19 oktyabrda keçirilən icazəsiz etiraz aksiyası ilə bağlı bəyanat yayıb. Bəyanatda keçirilən icazəsiz aksiyanın qarşısının alınması pislənib. Bəyanatda iddia olunurdu ki, guya polis aksiyaçılara qarşı zorakılıq tətbiq edib. Hansı ki, asayiş keşikçiləri zorakılıq cəhdlərinin qarşısını alıblar.

O baxımdan maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bunun arxasında siyasi motivlər dayanır: "Çünki Azərbaycan dövləti maraqlıdır ki, insanların əmək hüquqları pozulmasın. Bununla bağlı son illər bir sıra işlər görülür. Bütün işçilərlə əmək müqaviləsinin bağlanmasına səy göstərilir. Bütün bunlarda məqsəd odur ki, ölkədə qüvvədə olan Əmək Məcəlləsi pozulmasın. Məcəlləni pozanlara qarşı ciddi tədbirlər görülür. Belə olan halda, hansı əmək hüquqlarının pozulması hallarının çoxalmasından söhbət gedə bilər? Nəzərə almaq lazımdır ki, hökumət çalışır vətəndaşların əmək hüquqları pozulmasın. Ona görə də ABŞ-ın bu qərarı siyasi motivlərlə bağlıdır. Birləşmiş Ştatlar, adətən, bu kimi hansısa qərar qəbul edəndə bunun əsas səbəbini heç vaxt açıqlamır və sadəcə olaraq hansısa bəhanə uydurur.

*"Birləşmiş Ştatlar, adətən, bu kimi hansısa qərar qəbul edəndə bunun əsas səbəbini heç vaxt açıqlamır"*

Nəticədə qərarını hansısa bəhanə ilə əlaqələndirməyə çalışır. O baxımdan hesab edirəm ki, Azərbaycanın ticarət üstünlüklərinin ümumi sistemə uyğunluğunun yenidən nəzərdən keçirilməsinin arxasında müəyyən siyasi məqamlar var. Məhz həmin siyasi motivlər səbəbindən ABŞ Prezident Administrasiyasının Ticarət Nümayəndəliyi belə bir yanaşma ortaya qoyub. Çünki bunun məhz indi baş verməsi təsadüfi deyil".

***Vidadi ORDAHALLI***

# 70-dən yuxarı yaşlı məmur və deputatların Prezidentin tövsiyəsinə reaksiyaları...

**Ölkədə aparılan islahatlarla bağlı cəmiyyətdə geniş müzakirələr gedir. Xüsusilə də yaşla bağlı həyata keçirilən kadr islahatları əhali tərəfindən rəğbətlə qarşılanır. Struktur islahatları ilə yanaşı, kadr islahatlarının da paralel həyata keçirilməsi yaxşı nəticələrin olacağına dair ümidləri artırmış olur.**



***Rauf Zeyni:** "Mən sağlamam deməklə, ömürlük hansısa vəzifəni özününküləşdirmək də olmaz"*

Prezident Hacıbala Abutalıbovu qəbul edərkən onun yaşına görə istefa ərizəsini təqdim etməsini müsbət hal kimi dəyərləndirdi və hətta dedi ki, onun addımı digərləri üçün də örnək olmalıdır, çünki biz gənc nəslə yol açmalıyıq. Həmin görüşdən sonra biz bəzi iriçaplı məmurların yaşlarına görə istefa ərizəsi təqdim etdiyini gördük. Bu hadisələrdən sonra cəmiyyətdən gələn çağırışlar çoxaldı. Bəzi yaşı çox olan məmurlar və deputatlardan da istefa verməleri tələb edildi. Diqqətçəkən məqamlardan biri də bu oldu ki, heç də bütün yaşlı məmur və deputatlar cəmiyyətdən gələn çağırışı normal qəbul etmədi. Hətta bunu aqressiya ilə qarşılayanlar da oldu. Bəziləri isə yaşlarının çox olmasına baxmayaraq, sağlıq durumlarındakı üstün keyfiyyətləri sadalayraq, gedən prosesə açıq müqavimət mövqeyi ortaya qoydular.

Aparılan kadr islahatlarına verilən və daha çox müqavimət mahiyyəti daşıyan reaksiyaları necə dəyərləndirmək olar?

Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə Prezidentinin apardığı mütərəqqi islahatlar əhalinin böyük hissəsi və vətəndaş cəmiyyəti sektoru tərəfindən böyük rəğbətlə qarşılanır: "Bundan da belə nəticəyə gəlmək olar ki, islahatlar davamlı xarakter daşıyacaq. Azərbaycanın gələcəyini təmin edən bu prosesin qarşısını almaq mümkün olmayacaq. Ölkəmizin inkişafı üçün kim özündə təpər, peşəkarlıq, güc hiss edirsə, buyursun, Azərbaycanın gələcəyinə yönəlik proseslərdə iştirak etsin. Ölkə Prezidentinin çağırışına müsbət yanaşanlar buyursunlar öz səmimiyyətləri ilə buna reaksiya verib, yerlərini müəyyən etsinlər. Bununla aparılan islahatlara öz töhfələrini vermiş olarlar. Mən sağlamam deməklə, ömürlük hansısa vəzifəni özününküləşdirmək də olmaz. Kimsə demir ki, vəzifədə çalışmaq üçün bu keyfiyyətlər nəzarətdən keçirilməlidir. Burada məcburi bir prosedur da yoxdur. Sadəcə, ölkə başçısı yaşı 70-dən artıq olan məmurları bir səmimiyyətə dəvət etdi. Bununla cənab İlham Əliyev demək istədi ki, yalnız kreslonu deyil, ölkənin taleyini də düşünsünlər. Fikir verdinizsə, dövlətçiliyin qorunmasında böyük xidmətləri olan bəzi məmurlar həmin çağırışa hamıdan tez cavab verdilər və onların bu təşəbbüsünə Prezident böyük ehtiramla cavab verdi. Bu nöqteyi-nəzərdən mən də Prezidentin müraciətinə dəstək verirəm. Hesab edirəm ki, proses davam etməlidir. Heç kim fikirləşməsin ki, Prezident dedi, bir azdan yaddan çıxıb gedəcək. Kimsə düşünməsin ki, bu, gündəmdən düşəcək və kadr islahatlarının zəruriliyi unudulacaq.

*"Ölkəyə xidmət yalnız vəzifədə işləməklə olmur"*

Media və vətəndaş cəmiyyəti bu məsələni daim gündəmdə saxlamalıdırlar ki, ortada əməli nəticələr olsun. Gənc kadrlara imkan yaratmaq lazımdır ki, onlar ölkəmizin gələcəyinə töhfələrini versinlər. Əlbəttə, təcrübəli insanlar da bu prosesə dəstək verməlidirlər. Həmin təcrübəli insanlar ölkəmizin inkişafına özəl sektorda, təhsildə, vətəndaş cəmiyyətində də öz töhfələrini verə bilərlər. Ölkəyə xidmət yalnız vəzifədə işləməklə olmur".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilərin çox qorxduğu qırıcı təyyarələr Azərbaycana gəlir...

**Ölkəmizin islam aləmi və bütün dünyada əsas müttəfiqlərindən olan Pakistan bu gün hərbi sahədə də öndə gələn dövlətlərdən biri sayılır. Hindistanla məlum münasibətlər üzündən Pakistan hərb sənayesini də davamlı olaraq inkişaf etdirir. "Pakistan Aeronautical Complex" və Çinin "Chengdu AircraftIndustry Corporation" şirkətlərinin birgə layihəsi olan "JF-17 Thunder" qırıcıları da bu fonda daim xüsusi diqqət mərkəzində olub.**

8 il əvvəl Çinlə birgə istehsal edilən bu qırıcıları son dövrlərdə Pakistan mütəxəssisləri silah təchizatı baxımından əhəmiyyətli dərəcədə təkmilləşdirib. Məsələn, elə bu günlərdə Pakistan Hərbi Hava Qüvvələri "JF-17 Thunder" qırıcı təyyarəsində quraşdırılan yeni silahı sınaqdan keçirib. Bu uğurlu sınaqdan sonra "JF-17 Thunder" gecə və gündüz yüksək dəqiqliklə müxtəlif hədəfləri nəzarətdə saxlaya bilir. Yeni silah pakistanlı mütəxəssislər tərəfindən quraşdırılıb. Xatırladaq ki, saatda 2,2 min kilometr sürətə malik olan "JF-17 Thunder" üç min kilometrədək məsafə qət edir. Təyyarə 23 millimetrlik top, idarə olunan və olunmayan raketlər, əlaqələndirilə bilən bombalarla təchiz edilib.

O da məlumdur ki, Azərbaycan müəyyən müddətdir həmin qırıcılara maraq göstərir. Pakistan prezidenti Arif Alvi bu xüsusda bildirib ki, sözügedən təyyarələrin Azərbaycana çatdırılmasında heç bir problem yoxdur. O, Azərbaycanla bütün istiqamətlə üzrə əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirir: "Pakistan və Azərbaycan arasındakı əməkdaşlıq iki xalq və ölkə arasındakı sıx dostluq münasibətlərinin mahiyyətini əks etdirir. Biz məhz bu dostluğa əsaslanaraq möhkəm tərəfdaşlıq əlaqələri qurmuşuq. Pakistan və Azərbaycan bir-birinə daim dəstək olur". İki ölkənin hərbi əməkdaşlığından danışan Prezident Azərbaycana 10 ədəd "Super Muşşak" hərbi təlim təyyarələrinin göndərilməsinə başlandığını diqqətə çatdırıb. "Pakistanın hərbi sənayesi inkişaf edib. Biz hər cür silah növü istehsal edirik. Bizim özünü doğrultmuş JF-17 qırıcı təyyarələrimiz var. Bu da müzakirə mövzusu ola bilər. Biz, həmçinin, hərbçilərin təlimləri məsələlərində də yaxın əməkdaşlıq edə bilərik. Biz terrorizmlə daim mübarizə aparırıq. Pakistan qədər terrora məruz qalan ikinci ölkə yoxdur. Ölkəmizdə 70 min insan terrorun qurbanı olub". Dağlıq Qarabağ və Kəşmir məsələlərində hər iki ölkənin bir-birini dəstəklədiyini deyən prezident Arif Alvi deyib ki, Pakistan və Azərbaycanın məqsədi sülh və əminamanlığa, BMT qətnamələrinin yerinə yetirilməsinə nail olmaqdır: "Hesab edirəm ki, sülhə alternativ yoxdur. Ölkələrin inkişafı üçün münaqişələri dayandırmaq, sülhə nail olmaq lazımdır".




Bu açıqlamalardan bir daha aydın görünür ki, Pakistan Azərbaycanla bütün istiqamətlərdə, o cümlədən hərb müstəvisində əməkdaşlığa xüsusi önəm verir. Elə bu fonda "JF-17 Thunder" qırıcı təyyarələrinin ölkəmizə tədarükü də yaxın tezlikdə reallaşa bilər. Pakistanın ingilisdilli "Daily Times" qəzeti də bu günlərdə belə bir məlumat yaymışdı ki, Azərbaycanın bu qırıcıları almasına dair danışıqlar yekunlaşıb və tərəflər müvafiq razılıq əldə edib. Tezliklə həmin təyyarələrin Azərbaycan ordusunun ixtiyarında olacağı da bildirilir.

Digər tərəfdən məsələ ilə bağlı daha birmaraqlı məqam Azərbaycanın Türkiyədən "hava-yer" tipli SOM-B1 qanadlı raket almasıdır. Həmin raketlər ilk dəfə ötənilki paradda nümayiş olunub. Qeyd edək ki, Azərbaycanın SOM-B1 qanadlı raketləri ilə silahlanması ona Qarabağda erməni qüvvələrinin infrastrukturuna yüzlərlə kilometr məsafədən dəqiq zərbə endirməyə imkan verir. Özü də bu raketlərə qarşı mübarizə aparmaq praktiki olaraq mümkün deyil. Çünki mürəkkəb trayektoriya ilə hərəkət edən qanadlı raketlərə qarşı mübarizə aparmaq üçün hava hücumundan müdafiə sistemlərinin çoxpilləli radarlar şəbəkəsi qurulmalıdır. Üstəlik, belə raketləri izləmək və neytrallaşdırmaq üçün raket əleyhinə müasir silahlar, yüksək peşəkarlığa malik heyət olmalıdır. Ermənistan isə bütün bunlardan məhrumdur. Qeyd edilən qanadlı raketlərin çəkisi 600 kiloqrama yaxın, atəş mənzili 250 kilometrdir. Hazırda Türkiyənin Hərbi Hava Qüvvələri həmin raketləri özünün F-16C və F-4 qırıcılarında yerləşdirib. Bu vaxta qədər ehtimal edilirdi ki, Azərbaycan Hərbi Hava Qüvvələri SOM raketlərini mövcud aviaplatformalarında, xüsusən modernləşdirilmiş MiQ-29 qırıcısında quraşdıracaq. Amma Pakistanın "The Quwa Defence News & Analysis Group" hərbi analiz qrupu bildirir ki, bu raketlər Azərbaycanda məhz JF-17 qırıcılarına quraşdırıla bilər. Mərkəzin analitiklərinə görə, Azərbaycan Hərbi Hava Qüvvələri üçün təkcə bu raketi daşımaqdan ötrü yeni qırıcı platformasına investisiya qoymaq az əhəmiyyət daşıyır. Bu durumda SOM raketlərinin JF-17 qırıcılarına inteqrasiya edilməsi vəziyyətdən ən yaxşı çıxış yoludur.

Yayılan başqa bir məlumata görə isə, əslində, Pakistan artıq Azərbaycan üçün "JF-17 Thunder" qırıcı təyyarələrinin "Block III" konfiqurasiyasını hazırlayıb. Təyyarəyə AESA radarı seçilib və bu radarla sınaqları da keçirilib. Həmin konfiqurasiyalı təyyarələrin 2020-ci ilin əvvəllərinə ölkəmizə verilməsi nəzərdə tutulur. Xatırladaq ki, erməni tərəfi bundan əvvəl həmin qırıcıların Azərbaycana gəlişini Ermənistan üçün böyük təhdid olaraq qiymətləndirmişdi. Rusiyanın "Voennoe obozrenie" nəşri isə bu fonda yazır ki, yeni təyyarələr almağı planlaşdıran Azərbaycan həm də regionda ən müasir hava hücumundan müdafiə sisteminə malikdir. Rusiya nəşri Azərbaycanın son illər Hava Hücumundan Müdafiə qüvvələrini də təkmilləşdirdiyini, müxtəlif tipli çoxsaylı hava hücumundan müdafiə vasitələri əldə etdiyini və ya sovet ordusundan miras qalan texnikanı modernləşdirdiyini yazır. Bildirilir ki, Azərbaycanın hava hücumundan müdafiə vasitələri nəinki ölkə ərzisində, eləcə də qonşu ölkələrin üzərində uçan hava hədəflərini vurmaq imkanındadır. Bildirilir ki, Azərbaycan regionda ən güclü radar sistemlərinə malik ölkələrdən biridir. Son illər Azərbaycan Ukrayna və Belarusla yanaşı, İsraildən üçkoordinatlı ELM-2288 AD-STAR və ELM-2106NG radilokatorlarını əldə edib. Bu radiolokatorlar zenit-raket komplekslərinin hərəkətini idarə etməklə yanaşı, qırıcıları da yönləndirir, hava trafikini nizamlaya bilir.

***Tahir TAĞIYEV***

Azərbaycanın həyata keçirdiyi enerji layihələri bu gün Avropanın, eləcə də qardaş Türkiyənin təhlükəsizlyində mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, baş verənlər ölkəmizin Qərb üçün həm geosiyasi, həm də geoiqtisadi əhəmiyyətini də artırır. Qarşıdakı dövr ərzində bu istiqamətdə Azərbaycanın mövqelərinin daha güclü hala gəlməsi gözlənir.

# Azərbaycanın geosiyasi və geoiqtisadi mövqelərini gücləndirən yeni amillər...



Ən azı o baxımdan ki, gələn il Azərbaycan "Cənub Qaz Dəhlizi"ni tam şəkildə istifadəyə verməyə hazırlaşır.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin son hissəsi sayılan TAP kəmərinin inşası məhz gələn il başa çatır. İndiki halda "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində Avropa üçün çox önəmli layihədir. Bu layihədə həm mənbələrin, həm də marşrutların şaxələndirilməsi baş tutur. Belə ki, Azərbaycan qazı Avropa üçün yeni mənbədir. Bununla Avropanın enerji təhlükəsizliyi daha dolğun və tam şəkildə təmin ediləcək. "Cənub Qaz Dəhlizi" bu mənada Azərbaycanın mövqeyini gücləndirməklə yanaşı, onu geoiqtisadi və geosiyasi məkanda daha güclü söz sahibinə çevirir. Çünki Azərbaycan belə layihələrdə iştirak etməklə beynəlxalq arenada həm siyasi, həm də iqtisadi nüfuzunu yüksəldir. Bunu türkiyəli ekspert Sedat Aybar da təsdiq edir. Onun sözlərinə görə, "Cənub Qaz Dəhlizi", eləcə də Azərbaycanın Türkiyədə həyata keçirdiyi layihələr mühüm əhəmiyyətə malikdir: "Məsələn, TANAP və STAR Neft Emalı Zavodunun istismara verilməsi hər iki ölkə üçün geosiyasi uğurlarla yanaşı, gəlir də gətirir. STAR zavodu neft-kimya sektorunun əsas xammalı olan nafta, ksilol və reformatın əldə olunmasını asanlaşdıraraq Türkiyənin bu sektorda idxaldan asılılığını azaldıb. Eyni zamanda, zavod dizel, təyyarə yanacağı, maye qaz və neft koksu kimi neft məhsullarını istehsal edərək cari kəsirin azalmasına yardım edib".

Ekspert həmçinin bildirib ki, TANAP Azərbaycan təbii qazını Qərbdəki istehlakçılara çatdırmaq baxımından strateji layihədir: "TANAP Bakıdan İtaliyaya qədər uzanan "Cənub Qaz Dəhlizi" layihəsinin ən önəmli halqasını təşkil edir. Layihə Avropa və Türkiyənin təbii qaz mənbələri çeşidliyini artırmaqla yanaşı, Türkiyənin enerji dəhlizinə çevrilməsi üçün atılan ən strateji addımlardan biridir. Amma TANAP sadəcə təbii qaz tədarükündə mənbələrin şaxələndirilməsini təmin etmək və ya beynəlxalq güc tarazlığı baxımından önəmli deyil. Bu layihə həm də Türkiyəyə ildə 6 milyard kubmetr təbii qaz nəql edəcək və Türkiyənin təbii qaz ehtiyacının 12%-ni qarşılayacaq. Bu, Türkiyəyə əhəmiyyətli iqtisadi rahatlıq təmin edəcək".

S.Aybar bu layihələrin Azərbaycana faydalarının bəlkə də Türkiyəyə faydalarından daha çox olduğunu da əlavə edib. "Burada qarşılıqlı "qazan-qazan" vəziyyəti var. TANAP mənbə ölkə olan Azərbaycanın məhsulunu bazara daha rəqabətli şərtlərdə təqdim etməsini təmin edən bir layihədir. Azərbaycan Türkiyə ilə yanaşı, Avropa bazarına, məsələn, İtaliyaya nəqli birbaşa marşrutla həyata keçirəcək. O bazara qaz tədarükünə qatılması Azərbaycanın həm Avropa İttifaqı, həm də region çərçivəsində strateji dəyərini artırır. Bu mənada, Türkiyədəki layihələrin Azərbaycan üçün qazanclarını iqtisadi və geosiyasi uğurlar olaraq dəyərləndirmək mümkündür".

Ekspert açıqlamasında TANAP və STAR layihələrinin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verməkdə olduğunu vurğulayıb: "Ümumiyyətlə, bu cür sərmayələrin bir qayda olaraq məşğulluq yaratma işinə töhfə verdiyi aydındır. SOCAR-ın Türkiyədəki böyük layihələri başlıca olaraq məşğulluq təmin etməsi baxımından ölkə iqtisadiyyatına fayda verir. Təbii qaz və enerjidə xaricdən asılı ölkə olan Türkiyə üçün SOCAR və onun ölkəsinin Azərbaycan olması çox önəmlidir. Türkiyənin enerji və təbii qaza tələbatı ödəmək baxımından problemi var. Türkiyə üçün TANAP-ın regional enerji tarazlığı baxımından daşıdığı önəm aydındır. STAR zavodu isə sadəcə məşğulluq yaratmır, innovasiya və sahibkarlığı dəstəkləyir. Türkiyə üçün çoxfunksiyalı fayda təmin edir". Qeyd edilənlər təsdiq edir ki, TANAP tarixi bir layihə kimi Azərbaycanla Türkiyənin növbəti zəfəri olaraq qiymətləndirilir.

Bundan başqa, TANAP-ın daxil olduğu "Cənub Qaz Dəhlizi" özü isə ümumilikdə Avropa ilə Asiya arasında səmərəli əməkdaşlıq əlaqələri yaradır. Onun verəcəyi töhfələr, ekspertlərin fikrincə, artıq qarşıdakı dövr ərzində daha geniş miqyasda analoji əməkdaşlıq layihələrini də gündəmə gətirəcək. Ekspertlərə görə, "Cənub Qaz Dəhlizi" daha çox sayda Avropa ölkəsini bu layihəyə qoşulmağa təhrik edir. Yeni Mərkəzi Asiyadan gələ biləcək enerji nəqli "Cənub Qaz Dəhlizi"nə qoşulsa, daha güclü bir beynəlxalq layihə alınar. Bu da sözün əsl mənasında dünyanın enerji xəritəsində əsaslı dəyişiklik deməkdir. Dünya enerji nəqlinin diversifikasiyası nəticəsində xeyli təhlükəsiz enerji modelinə sahib olacaq. Bütün bunlar isə birbaşa Azərbaycanın təşəbbüsü ilə baş tutur.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi"nin icrasında 7 ölkə, yəni Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir. Gələn il isə üç Balkan ölkəsi olan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənir. Bununla enerji layihəsində iştirak edən ölkələrin sayı daha da artır. "Cənub Qaz Dəhlizi" ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişir. Bunlar da, öz növbəsində, qeyd olunduğu kimi Azərbaycanın dünya miqyasında geosiyasi və geoiqtisadi əhəmiyyətini artırır. Təbii ki, bu durumda Azərbaycanın dünya miqyasında sözünün daha yaxşı eşidilməsi, ölkəmizlə hesablaşılması da qaçılmaz olur. Elə reallaşdırılan transmilli layihələrin ən mühüm əhəmiyyətlərindən biri də məhz bununla bağlıdır.

***Nahid SALAYEV***

**Ermənistanın Baş naziri Nikol Paşinyan Rusiyanın nüfuzlu "Kommersant" qəzetinə müsahibə verib. Paşinyan geniş müsahibəsi zamanı Rusiyanı şantaj etməyi də unutmayıb. Hətta həmin ölkənin boynuna bir minnət də qoyaraq deyib ki, strateji müttəfiqlər üçün Ermənistandakı iqtisadi inkişaf dinamikasının aşağı düşməməsi maraqlı olmalıdır.**

# Paşinyanın "dinamik inkişaf və qazın qiyməti" taktikası - Rusiyanın gizli şantajı...



## Elşən Mustafayev: "Ermənistanda belə inkişaf varsa, Paşinyan niyə pul vermək əvəzinə, şantaja keçir?"

Bununla Paşinyan fikrini belə əsaslandırır ki, bu rıçaq Rusiyanın əlindədir. Bunun üçün Ermənistana satılan təbii qazın qiyməti normal olmalıdır.

Paşinyan bildirib ki, hazırda Ermənistanda iqtisadi inkişaf yüksək templə gedir(?): "Bu səbəbdən də razılaşmamız müttəfiqlik əsasında olmalıdır. Başqa cür ola da bilməz".

Erməni Baş nazir qazın qiyməti ilə bağlı konkret rəqəmlər əsasında danışmaq istəməyib və bildirib ki, Rusiya ilə onları daha sıx müttəfiqlik telləri bağlayır: "Rusiyanın hansısa problemi olanda, biz dərindən narahat oluruq. Onlardan da adekvat münasibət görmək istəyirik".

Sadalanan fikirlərdən sonra bu qənaətə gəlmək olarmı ki, Paşinyan Rusiyanı açıq-açığına şantaj edir?

Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın nə demək istədiyi aydın görünür: "Adətən görmüşük ki, qaz şantajı ilə Rusiya məşğul olur. Çünki o, istehsalçı ölkədir. Bir çox hallarda Rusiya qaz təzyiqindən istifadə edib, ölkələrə öz siyasi şərtlərini diqtə edir. Biz bunu Ukrayna təcrübəsində də görmüşük. Ancaq Rusiyanın Ermənistanı şantaj etməsi üçün heç bir istəyi yoxdur. Çünki həmin ölkənin sərhədlərini rus sərhədçiləri qoruyur. Ölkənin ərazisində Rusiyanın hərbi bazası var. Burada yalnız Ermənistanın yeni rəhbərliyinin vurnuxması nəzərə çarpır. Məhz bu səbəbdəndir ki, qaz söhbəti indi meydana çıxıb. Görürsünz ki, Paşinyan deyir Ermənistanda gedən iqtisadi "inkişafı" əngəlləmək olmaz. Bununla Rusiyaya ultimatum verir ki, bunu etsəniz, Ermənistan çökəcək və bu, Moskvanın boynunda qalacaq. Rusiya Ermənistana qazı baha qiymətə satmır. Ermənistanda belə inkişaf varsa, Paşinyan niyə pul vermək əvəzinə, şantaja keçir? Ermənistanda Paşinyana yaxın olan media tez-tez bu fikirləri səsləndirir ki, dünya bazarında qazın qiymətləri aşağı düşür. Qazın qiyməti min kubmetr qaza görə 150-160 dollar aralığında dəyişir. Hazırda isə Rusiya Ermənistana qazı min kubmetrə görə 165 dollara satır. Yəni onların qənaətincə bu, dünya qiymətindən bahadır. Rusiya isə sərhəddəki qazının min kubmetrinin qiymətini 215 dollara qaldırmaq istəyir Hətta bununla bağlı Ermənistana xəbərdarlıq da olunub.

İrəvan isə hətta hazırda aldığı qiymətin daha da azaldılmasını istəyir və bunun üçün Moskva ilə danışıqlar aparır. Erməni KİV-i isə yazır ki, razılıq əldə olunmazsa, gələn ildən Rusiya təbii qazını Ermənistana daha baha qiymətə satacaq ki, bu da erməni istehlakçıların daha çox vergi verməsi ilə nəticələnəcək. Yəni Paşinyanın şantajları nəzərə alınmaya da bilər".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan Prezidentinin Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində çalışmaları ciddi təsirini göstərməkdədir. Qoşulmama Hərəkatı ölkələrinin Bakı Sammitində Azərbaycanın siyasi dəstək alması erməniləri yenidən hərəkətə gətirib. Tədbirin sonunda qəbul edilmiş sənədlə bağlı Ermənistan XİN bəyanatla çıxış edib.**

# Ermənistan Qoşulmayan ölkələrin Bakı Zirvə sənədinə dözə bilmədi - işğalçı böyük təlaşda...



## *Yeganə Hacıyeva: "Birdən-birə bu qədər ölkənin rəsmi İrəvanı işğalçı kimi tanıması Ermənistan diplomatiyasının fiaskosu idi"*

Bəyanatda Qoşulmama Hərəkatının üzvü olan ölkələrdən məsuliyyətli olmaq və danışıqlar prosesinə hörmətlə yanaşmaq tələb edilir.

Erməni diplomatiyası bu məsələdə də naşılığa yol verərək, Azərbaycanın üstün mövqeyini tədbirə sədrlik və evsahibliyi etməsi ilə əlaqələndirməyə çalışır. Onlar bildirirlər ki, Qarabağla bağlı məsələdə subyektivliyə yol verilib. Ermənistan XİN-i sonda Hərəkatda təmsil olunan üzv ölkələrə müraciət edərək onları obyektiv mövqe tutmağa çağırır.

Ermənistanın Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə toplantısı və onun yekununda qəbul edilən sənədlə bağlı keçirdiyi narahatlığın kökündə hansı amillər durur?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, keçən həftə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci sammiti başa çatdı. Sammitin gedişatında siyasi, iqtisadi, humanitar, mədəniyyət və təhlükəsizlik sahəsini əhatə edən, ümumlikdə, 10-a yaxın sənəd və ən əsası, bütün iştirakçıların dəstəklədiyi dörd əsas sənəd qəbul olundu: "Bütün iştirakçıların dəstəklədiyi sənədlər Bakı Yekun Sənədi, Bakı Siyasi Bəyannaməsi, Fələstin bəyannaməsi və yekun olaraq tədbirin yüksək səviyyədə keçirildiyi üçün ev sahibi Azərbaycan hökumətinə və xalqına təşəkkür və həmrəylik sənədi qəbul edildi.

Bizim üçün digər sənədlər də mühüm olsa da, əlbəttə, qəbul olunmuş qərarlardan ən mühümü, heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünə dəstək ifafə olunan sənədlər oldu.

Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi yekun 4 sənəddən ikisində - Bakı Siyasi Bəyannaməsində və Azərbaycan hökumətinə və xalqına təşəkkür və həmrəylik sənədində öz əksini tapdı. Bakı Yekun Sənədində BMT-nin üzvü olan 193 ölkədən 120 ölkənin dövlət və hökumət başçıları ərazilərin güc yolu ilə zəbt edilməsinin yolverilməzliyini vurğuladılar və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğu tanındı. Yəni birdən-birə bir sənədlə 120 dövlət Azərbaycanın ərazi bütövlüyünü, Ermənistanın ərazilərimizi işğalı faktını tanıdı. Daha konkret desəm, dünyada beynəlxalq birliyin subyekti olan dövlətlərin 63 %-nin Ermənistanı işğalçı kimi tanıması anlamına gəlir.

Rəsmi Ermənistanın Qoşulmama Hərəkatı üzvlərinə ünvanlanan müraciətinin əsası da bu faktdan narahat olmasıdır. Birdən-birə bu qədər ölkənin onu işğalçı kimi tanıması Ermənistan diplomatiyasının fiaskosu idi.

Burada bir şeyi xüsusi qeyd etmək istəyirəm: istər daxildə radikal qruplar, istərsə də xaricdə anti-Azərbaycan dairələri sanki bir dirijorun müşayiətindəki ansambl kimi Qoşulmama Hərəkatının Bakı Sammitini Azərbaycan üçün vaxt və maliyyə itkisi kimi qələmə verməyə və cəmiyyətdə yanlış fikir formalaşdırmağa çalışırdılar.

Siz diqqət edin, ayrı bir vaxtda, BMT-nin üzvü olan 193 ölkədən 120 ölkənin dövlət və hökumət başçılarının imzası duran Bakı Yekun Sənədi ilə təsdiqlənən ərazilərimizin güc yolu ilə zəbt edilməsi faktının yolverilməzliyi və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının tanınması üçün nə qədər zaman, nə qədər maliyyə və enerji sərf edilməli idi.

Odur ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Sammiti ölkəmiz üçün mühüm, xarici siyasətimiz üçün uğurlu bir siyasi tədbir oldu. Ermənilərin də bu yöndəki narahatlığı əbəs deyil".

***Məhəmmədəli QƏRİBLİ***

**BMT-dən sonra üzv ölkələrin sayına görə dünyada ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatıdır. Sözügedən hərəkat ölkələrində dünya əhalisinin 55 faizi yaşayır. İşğalçı Ermənistan Qoşulmama Hərəkatının üzvü deyil. Sözügedən ölkə QH-də müşahidəçi statusla təmsil olunan 17 dövlətdən biridir.**

# Ermənistan müşahidəçilikdən Qoşulmayanların üzvlüyünə keçmək istəsə - 120 dövlətin müqaviməti...



## *Məhəmməd Əsədullazadə: "Ermənistan belə bir təşəbbüslə çıxış etsə, üzv ölkələrin müqaviməti ilə üzləşəcək"*

Haçansa Ermənistanın QH-yə üzv olmaqla bağlı istəyinin üzv ölkələr tərəfindən necə qarşılanacağı maraq doğurur. Nəzərə almaq lazımdır ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşü Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini daha da gücləndirdi. Qəbul edilən sənədlərdə dövlət və hökumət başçıları münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq, hələ də həll olunmamasından təəssüf hissi keçirdiklərini bildirirlər. Həmçinin, münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini vurğulayırlar.

Bununla belə, yekun sənədə ilk dəfə olaraq çox mühüm yeni bənd daxil edildi. Bu bənddə dövlət və hökumət başçıları güc yolu ilə ərazilərin zəbt edilməsinin yolverilməzliyini vurğulayır və təsdiq edirlər ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğal edilməsi nəticəsində yaranmış vəziyyətin qanuniliyini tanımayacaq, bu ərazilərdə iqtisadi fəaliyyətlər də daxil olmaqla, bu cür vəziyyətin saxlanması üçün hər hansı kömək göstərməyəcək. Burada bilavasitə işğalçı ifadəsindən istifadə olunur. Bu, Ermənistanın növbəti dəfə 120 dünya dövləti tərəfindən işğalçı kimi tanınması deməkdir.

Bütün bunların fonunda maraqlıdır, Ermənistan QH-yə üzv olmaq istəyərsə, bu nə ilə nəticələnəcək?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, Ermənistan belə bir təşəbbüslə çıxış etsə, üzv ölkələrin müqaviməti ilə üzləşəcək: "Ermənistanın Qoşulmama Hərəkatında müşahidəçi statusuna baxmayaraq, artıq təşkilat daxilində rəsmən işğalçı ölkə kimi tanındı. Azərbaycanın sədrliyi dönəmində Ermənistan bu təşkilat vasitəsilə daha da izolyasiya olunacaq. Artıq 120 dövlət bu ölkəni işğalçı ölkə kimi tanıdı. Hesab edirəm ki, bundan sonra Ermənistanın bu təşkilata üzv olması mümkün olmaya bilər. Azərbaycanın apardığı uğurlu siyasət və prinsipial mövqeyi ölkələr arasında Qarabağla bağlı mövqeyinin güclənməsinə gətirib çıxarıb. Məhz QH-yə Azərbaycanın sədrliyi beynəlxalq arenada ölkəmizin imicinin daha da güclənməsinə gətirib çıxaracaq. Ermənistan artıq öz işğalçılıq siyasəti ucbatından bir sıra beynəlxalq təşkilatlarda aktiv şəkildə iştirak edə bilməyəcək. Azərbaycan kifayət qədər bu istiqamətdə çalışır ki, Ermənistanı belə mötəbər təşkilatlardan kənarda qoysun. Məhz Qoşulmama Hərəkatında Azərbaycanın tutduğu mövqe və apardığı siyasət Ermənistanın uzun illər bu təşkilatdan kənar qalmasına gətirəcək. Hesab edirəm ki, Ermənistanın BMT-dən sonra ikinci böyük bir təşkilatdan kənarda qalması Azərbaycanın uğurudur. Hesab edirəm ki, QH-də təmsil olunan ölkələr bundan sonra Ermənistanın hərəkata üzv olmasına qarşı çıxacaqlar".

> *"Sözügedən dövlətin Qoşulmama Hərəkatında müşahidəçi statusuna baxmayaraq, artıq təşkilat daxilində rəsmən işğalçı ölkə kimi tanındı"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Təcavüzkar siyasətin mahiyyəti açıldıqca Ermənistan rəhbərliyi beynəlxalq media müstəvisində də pis vəziyyətə düşür

**Ermənistanda ötən il baş tutan məlum hakimiyyət dəyişikliyindən sonra Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə olan ümidlərin də üzərindən, demək olar, xətt çəkilib. Buna əsas səbəb erməni hakimiyyətinin məsuliyyətsiz hərəkət və açıqlamalarıdır. Rəsmi Bakı bundan əvvəl dəfələrlə bəyan edib ki, Ermənistan tərəfinin məsuliyyətsiz ritorikası münaqişənin sülh yolu ilə həllinə yönələn bütün səyləri heçə endirə bilər.**

Eyni zamanda, elə həmin məsuliyyətsiz ritorika fonunda Azərbaycan tərəfi Ermənistanın işğal siyasətinin dünya miqyasında faş olunmasında mühüm nailiyyətlərə imza atıb. Bunu erməni tərəfi də təsdiq edir və o da vurğulanır ki, Ermənistan Azərbaycanın diplomatik hücumları qarşısında getdikcə daha aciz duruma düşür. Eyni zamanda etiraf edilir ki, müasirAzərbaycan diplomatiyası Ermənistanın işğalçı obrazını yarada bilib və İrəvanın bundan qurtulması, özünü müdafiə etməsi getdikcə daha çox müşkülə çevrilir. Konkret sübut kimi isə son günlərdə ölkənin xarici işlər naziri Zöhrab Mnatsakanyanın BBC telekanalının "HardTalk" proqramında məşhur aparıcı Stiven Sakurun Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təxribatçı bəyanatları barədə suallarını cavablandırmaqda aciz qalması göstərilir. Qeyd edək ki, bu məsələ işğalçı ölkədə ciddi mübahisələrə səbəb olub. Bir çoxları onu qeyri-peşəkarlıqda və jurnalistin "təxribatçı" (əslində, ədalətli və obyektiv) sualları qarşısında çarəsiz qalmaqda günahlandırıb. Xüsusən, Mnatsakanyan britaniyalı jurnalistin "Ermənistanın yeni hökuməti erməni qoşunlarının Qarabağda törətdiyi vəhşilikləri etiraf edə bilərmi" sualına cavab verə bilməməsi və eyni sözləri təkrar etməklə vəziyyətdən çıxmağa çalışması əsas tənqid obyektidir. Respublika Partiyasının sədr müavini Armen Aşotyan yenidən bu məsələyə qayıdaraq bildirib ki, xarici işlər nazirinin BBC-yə verilmiş qalmaqallı müsahibəsi gülüncdür: "Nazir siyasi və ictimai dairələrin sərt reaksiyasını, yumşaq dillə desək, zəif, hazırlıqsız şərhlərində Ermənistanda plüralizm və demokratiyanın mövcudluğuna aid edir. Nazir xəsis şəkildə unudur ki, hakimiyyət dəyişikliyinə qədər "Serjin Ermənistanı"nda bu cür plüralizm və azadlıqlar çoxdan mövcud idi. Müxaliflər isə o zaman damğalanmırdı və "millət xaini" elan edilmirdi. Buna görə də, cənab, mənim azad danışmaq hüququmu və peşə hazırlığımı ayağınıza yazmayın. Nə qədər ki, mən Nikol və onun komandasının büdcə hesabına milyonlarla dollarlara çatan "kayf"larlayam, siz o qədər bununla ələqəlisiniz. Qarabağ məsələsində yaranmış partlayış təhlükəli qarışıq vəziyyətin günahkarı Nikoldur. Mnatsakanyanın isə onun dediklərini müdafiə etməyə çalışması vəziyyəti qəlizləşdirir və Ermənistanı gülünc vəziyyətə salır. BBC-yə verilmiş müsahibədə də məhz bunu gördük".

Elə erməni diplomat Arman Navasardyan da eyni mövqeyni bölüşür. O bildirir ki, Mnatsakanyan məlum müsahibəsində yanlışlıqlara yol verib. Navasardyan Mnatsakanyanın Qarabağda 150 min ermənin yaşaması ilə bağlı bəyanatını yanlış bəyanat kimi qiymətləndirib: "Qarabağ 150 min ermənin yaşadığı bir ərazidir" ifadəsi kobud səhv idi. Əlbəttə, bu heç vaxt yol verilməyəcək siyasi səhv idi... Mnatsakanyan burada düzgün yönəlməli idi". Onun sözlərinə görə, ümumiyyətlə, Ermənistanın xarici siyasəti uğurlu deyil və yenidən nəzərdən keçirilməyə ehtiyacı var, lakin yenilənmə də sistemli şəkildə olmalıdır.

Navasardyan əlavə edib ki, Ermənistan XİN-in islahatlara ehtiyacı var. Daha bir erməni politoloq Robert Gevondyanın fikrincə də, məlum müsahibə Ermənistanın diplomatiyasının uğursuzluğunu üzə çıxarıb: "Xarici İşlər Nazirliyi daim yayınır, qorxulu cavablar verirdi və bu, yeni Ermənistan şəraitində o qədər də anlaşılan deyil".

O bildirib ki, ilk baxışdan, məsələn, Ermənistanın təhlükəsizliyi ilə bağlı məsələdə olduqca "düzgün" müşahidələr olsa da, Qarabağ münaqişəsinə gəldikdə, Mnatsakanyanın sözləri kifayət qədər qəribədir: "Jurnalist deyir ki, erməni qüvvələri insan hüquqlarının pozulmasına gətirib çıxarıb, lakin xarici işlər naziri tərəfindən əks cavab yoxdur". Gevondyanın sözlərinə görə, buradan Ermənistanın xarici işlər nazirinin jurnalistin suallarına hazır olmaması barədə doğru təəssürat yaranır: "Biz konkret olaraq Qarabağ məsələsində bu cür yayındırıcı danışıqırıqsa, maraqlarımızı nümayiş etdirmiriksə, bu problemdir".

"İşıqlı Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan isə məsələyə belə münasibət bildirib:"Zöhrab Mnatsakanyanın BBC televiziyasının "HardTalk" verilişinə müsahibəsini izlədim, nazirin cavabı çox zəif idi". O qeyd edib ki, nazirin aparıcı Sakurun tərəfimizdən Azərbaycan tərəfinə hücumlar həyata keçirilməsi ilə bağlı çıxışına cavabı olduqca zəif idi və bu da Ermənistanın Qarabağ məsələsində haqsızlığını meydana qoyur. Erməni politoloq Stepan Danielyan bildirib ki, artıq hakimiyyətin xarici siyasətdə uğursuzluqları özünü qabarıq formada büruzə verir: "Ermənistanın xarici işlər nazirinin BBC televiziyasına müsahibəsi olduqca uğursuz idi, lakin bu təkcə Mnatsakanyanın yox, həmçinin erməni xarici siyasətinin uğursuzluğu idi". Onun sözlərinə görə, bu müsahibəni adi müsahibə kimi qəbul etmək olmazdı: "Hər kəs bu müsahibənin sözlərini izləyirdi və hər bir sözün danışıqlar prosesində təsiri var. Bu müddət ərzində səslənən bəyanatlar Ermənistan Respublikasının xarici siyasəti kimi müşahidə olunur. Fikrimcə, qeyd etmək lazımdır ki, Zöhrab Mnatsakanyan elə bir təcrübəli siyasi xadim olmayıb. Bir çoxları deyir ki, o yaxşı diplomatdır, lakin o, elə bir siyasi xadim olmayıb, çünki verilən siyasi suallara siyasi xadim kimi ümumiyyətlə cavab verə bilmirdi". Onun sözlərinə görə, müsahibənin uğursuz olması həm də Paşinyanın Qarabağla bağlı ziddiyyətli bəyanatları ilə əlaqədardır. "Milli Gündəm" partiyasının həmtəsisçisi Avetik Çalabyan Mnatsakanyanın BBC-yə müsahibəsi ilə bağlı "Facebook" səhifəsində bildirib ki, Ermənistanın xarici siyasəti olduqca uğursuzdur və ən qısa zamanda Mnatsakanyan vəzifəsindən uzaqlaşdırılmalıdır: "Bir çoxunuz artıq Mnatsakanyanın BBC-nin jurnalisti Stiven Sakurla bədnam müsahibəsini dinləmisiniz və ya ən azından reaksiyaları görmüsünüz. İndi təəccüb edirsiniz ki, xarici işlər nazirimiz cəmi bir yaxşı hazırlaşmış jurnalistin qarşısında necə bu qədər məzlum və köməksiz vəziyyətdə çıxış edə bilər. Bu münasibətlə cəmi bir neçə sadə sual səsləndirmək istəyirəm.

Nə üçün baş nazir Paşinyan iki həftə fərqlə bir yerdə "Qarabağ Ermənistandır, vəssalam" deyir, başqa bir yerdə isə "Dağlıq Qarabağ məsələsi Azərbaycan xalqının da razılığı ilə həll edilməlidir" bildirir? Bununla da sözün əsl mənasında bütün dövlət rəsmilərini bu açıq-aydın ziddiyəti izah etmək üçün absurd zərurət qarşısında qoyur, rəqibə və hətta vasitəçilərə bizi prinsipsiz olmaqda ittiham etməyə fürsət verir. Və nəhayət, nə üçün son zamanlar Minsk Qrupunun vasitəçi ölkələri müxtəlif vasitələrlə Ermənistan hakimiyyətinə qarşı öz narazılıqlarını bildirirlər və onu qeyri-konstruktiv olmaqda ittiham edirlər?".

Beləliklə, qeyd edilən bu reaksiyalardan aydın görünür ki, Ermənistanın Qarabağ siyasətinin ifşa olunması düşmən ölkədə şok effekti yaradıb. Baş verənlərlə bağlı "1in.am" portalı yazır ki, Mnatsakanyanın belə vəziyyətə düşməsi onun azərbaycanlı həmkarı ilə görüşündə də ciddi məğlubiyyətlə üzləşməsini istisna etmir. Ermənilərin bu cür müzakirələr açması və məğlubiyyətlərini etiraf etməsi isə təbiidir. Üstəlik, söhbət Qarabağ münaqişəsinin həlli üzərinə gələndə nə deyəcəklərini bilmirlər. Ona görə ki, deməyə sözləri yoxdur, ortada açıq işğal faktı var ki, bu da bütün dünya tərəfindən pislənir. Bu, həm də dünya miqyasında böyük siyasi təzyiq deməkdir. Məhz bu təzyiq qarşısında erməni hakimiyyətinin rəhbər simaları özlərini itirir, dilləri topuq vurur. Belə vəziyyət həm də Azərbaycan diplomatiyasının qələbəsi sayıla bilər. Digər tərəfdən, son nəticədə erməni ekspertlər öz xarici işlər nazirlərini tənqid edincə, yaxşı olar ki, həm də xarici siyasətin təcavüzkarlığına diqqət yetirsinlər. Çünki onların başına bəla olan Azərbaycana qarşı apardıqları işğalçılıq siyasətidir. Yalnız bu siyasətdən əl çəkməklə erməni diplomatiyası beynəlxalq səhnədə yaşadıqları pərtlikdən qurtula bilər. Əks təqdirdə ermənilər daim diplomaik müstəvidə də zərbə alacaqlar və bunu Zöhrab Mnatsakanyanın BBC biabırçılığından sonra daha bir açıqlaması da təsdiq edir. Belə ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun Bakıda işğalçı Ermənistanın regionda sülhə və sabitliyə təhlükə törətməsi ilə bağlı verdiyi bəyanat, Mnatsakanyan da daxil olmaqla, Ermənistan rəsmilərini təşvişə salıb. Zöhrab Mnatsakanyan Türkiyə rəsmilərinin ritorikasını Ermənistanın təhlükəsizliyinə hədə adlandırıb. Rəsmi Ankaranın növbəti dəfə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Azərbaycana dəstəyini ifadə etdiyini diqqətə çatdıran Mnatsakanyan deyib ki, Mövlud Çavuşoğlunun "Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi üçün əlimizdən gələni edəcəyik" sözləri Ermənistanın təhlükəsizliyinə təhdiddir və ermənilər üçün ciddi problemdir. Erməni nazir əlavə edib ki, Türkiyə xarici siyasət idarəsinin rəhbərinin PKK terror təşkilatının tərkibində erməni terrorçuların da olması barədə bəyanatı da İrəvanda ciddi narahatlığa səbəb olub. Halbuki, Mnatsakanyana da yaxşı bəllidir ki, Türkiyə əvvəldən eyni mövqeni ifadə edib və bu səbəbdəndir ki, erməni ekspert Razmik Akopcanyan Mnatsakanyanın dediklərində hansısa yenilik olmadığını vurğulayaraq, nazirin yenə ermənî cəmiyyətini təəccübləndirdiyini bildirib.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Çağdaş media orqanları sırasında özünəməxsus yeri olan, öz dəst-xəttinə, fəaliyyətinə görə rusdilli nəşrlər arasında xüsusilə seçilən "Novoe vremya" qəzeti 20 yaşını arxada qoydu. "Novoe vremya" qəzetinin 20 illiyi münasibətilə nəşrin baş redaktoru, tanınmış ictimai xadim Şakir Habiloğlu (Ağayev) ilə görüşdük. Həm qəzetin keçdiyi yola nəzər saldıq, həm də onun müasir mediada oynadığı roldan danışdıq.**

# "20 il əvvəl bu qəzeti açanda bizim tutduğumuz xətdə bir boşluq var idi"

*Şakir Habiloğlu: "Bizim məqsədimiz qərəzdən uzaq, Azərbaycanın dövlət maraqlarına xidmət edən bir mətbu orqanın fəaliyyətini davam etdirməkdir"*

**- Şakir müəllim, 20 illik bir yol qət etmisiniz. Özü də rusdilli qəzet nəşr etməyin özü çətindir. Bu 20 illik uğurlu yolçuluğa nail olmağınız nəyin hesabına baş verdi?**

- 20 il tarix üçün qısa bir müddət olsa da, bir mətbu orqan, qəzet üçün böyük tarixdir. Nəzərə alsaq ki, Azərbaycanın dövlət müstəqilliyinin 28 yaşı var və bizim qəzetin yaşı da dövlət müstəqilliyimizin yaşından 8 yaş kiçikdir, "Novoe vremya" az qala dövlət müstəqilliyimizlə yaşıddır. Bilirsiniz ki, dövlət müstəqilliyinin ilk illərində ölkəmizdə çox ciddi problemlər mövcud olub, saysız çətinlik yaşamışıq. Sözsüz ki, bu problemlər dövri mətbuata da öz təsirini göstərib. Bütün bunlara baxmayaraq, biz başladığımız yolu davam etdirdik və artıq 20 ildir oxucularımızla, bizi arzu edənlərlə görüşə gəlirik. Siz yaxşı bilirsiniz ki, bu 20 il ərzində ölkəmizdə nə qədər qəzet nəşr edilib, sonra bağlanıb.

**- Şakir müəllim, Siz bu qəzetin nəşrinə başladığınız dövrdə kifayət qədər rusdilli qəzet mövcud idi. Amma onların çoxu bu gün tarixə qovuşub. Bu nəşrlərdən fərqli olaraq, "Novoe vremya" bu gün yaşayır...**

- Tamamilə razıyam. Bizim nəşrə başladığımız dövrdə nə qədər rusdilli qəzet nəşr edilməyə başladı, lakin onlar çətinliklərə davam gətirə bilmədilər. Çox rusdilli populyar qəzet bağlanıb. Dövlət qəzeti olan "Bakinskiy raboçiy"i çıxmaq şərtilə, rusdilli qəzetlər sırasında "Novoe vremya" sabit dəsti-xətti olan, daim bir ideologiyaya, bir məqsədə qulluq edən bir nəşr kimi çətinlikləri dəf edərək fəaliyyətini indiyə qədər davam etdirməyə nail olub. Düzdür, bu gün başqa rusdilli qəzetlər də var, amma onlar daha çox əyləncə xarakterli nəşrlərdir və onların ictimai-siyasi dəst-xətti yoxdur. Hesab edirəm ki, bundan sonra da fəaliyyətimizi uğurla davam etdirəcəyik.

**- Bayaq dediniz ki, digər populyar rusdilli qəzetlər çətinliyə dözə bilməyib nəşrlərini dayandırdılar. Çətinlik deyəndə nəyi nəzərdə tutursunuz? Burada söhbət rəqabətə davam gətirməməkdən gedir, yoxsa daha ciddi səbəblər var idi?**

- Biz 20 il əvvəl qəzet açanda tutduğumuz xətdə bir boşluq var idi. O nədən ibarət idi? Birincisi, 20 il əvvəl Azərbaycan mətbuatı çox siyasiləşmişdi. İki qütb vardı - qəzetlər ya iqtidarın, ya da müxalifətin maraqlarını müdafiə etməli idi, orta xətt mövcud deyildi. Gerçəklik bundan ibarət idi ki, həmin dövrdə ölkəmizdə müstəqil mətbuat yox idi. Hamı bu dövrü yaşayıb. Bir neçə mətbuat orqanı yalnız müxalifəti tərifləyirdi, bir neçəsi isə ancaq iqtidarı. Ölkə daxilində müstəqil mövqe tutan mətbuat orqanı yox idi. Amma həmin dövrdə "Novoe vremya" tamamilə müstəqil bir dəst-xətt tutdu. Bizim üçün həmin dövrdə iqtidar və müxalifət yox idi, yalnız Azərbaycan dövlətinin maraqları, dövlət müstəqilliyinin qorunması, Dağlıq Qarabağ probleminin daha böyük auditoriyalara çatdırılması vardı. Biz müxalifəti də, iqtidarı da tənqid etmişik. Bu gün müxalifət haqqında deyilənləri biz 20 il bundan əvvəl demişik ki, müxalifətin filan ciddi səhvləri, nöqsanları var.

Bilirsiniz ki, keçən əsrin 90-cı illərində müxtəlif qüvvələrin Azərbaycan uğrunda mübarizəsi, Azərbaycanda mövqe bərkitmək prinsipləri vardı. Rusiya artıq zəifləmişdi və iri dövlətlər Azərbaycanda öz mövqelərini bərkitmək istəyirdilər, onların burada çox böyük maraqları vardı. Həmin dövrdə Azərbaycan mətbuatına ən çox dəstək göstərmək istəyən xarici qurumlar meydana çıxmışdı. Qərb təşkilatları, fondları müxtəlif layihələrlə Azərbaycan mediasına "dəstək" göstərirdilər. Soros Fondundan tutmuş, digər fondlara qədər mətbuata "yardımlar" vasitəsilə Azərbaycanın daxili işlərinə qarışmaq, burada qarışıqlıqlar yaratmaq niyyəti güdürdülər. Yəni onların niyyətləri saf deyildi.

Biz Azərbaycanın daxili və xarici siyasəti ilə bağlı müxtəlif yazılar, araşdırmalar dərc edirdik. "Novoe vremya" Azərbaycanın xarici siyasətilə bağlı mediada bir yenilik etdi. O vaxt biz o yolu tutduq ki, Rusiya ilə vuruşmaq yox, onunla dost olmaq lazımdır. Hesab edirdik ki, Azərbaycan-Rusiya əlaqələrini inkişaf etdirmək lazımdır, Rusiyanın bizə qarşı münasibəti tam mənfi ola bilməz. Putin hakimiyyətə gəldikdən sonra bu əlaqələrin inkişafa doğru getməsi özünü bir daha doğrultdu. Rusiya-Azərbaycan prezidentlərinin münasibətləri bir daha onu sübut etdi ki, bu əlaqələrin tarixi kökləri var, bu əlaqələr bu gün də yüksək səviyyədə davam etdirilir. Azərbaycanın həm xarici siyasətində, həm də iqtisadi təməllərində Rusiya-Azərbaycan münasibətləri çox mühüm rol oynayır. Biz onu göstərdik ki, bizim vətəndaşlar, soydaşlarımız ən çox Rusiyadadır. Rusiya ilə Azərbaycanın əlaqələrinin yaxşı olması onların orada rahat yaşamasına şərait yaradacaq. Deyim ki, Rusiya-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olması, Putin-İlham Əliyev münasibətləri Rusiyada yaşayan soydaşlarımızın həyatına, fəaliyyətinə çox müsbət təsir edib. Bizim qəzet vasitəsilə gördüyümüz işlər Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət üçündür. Bugünkü münasibətlər sübut etdi ki, bizim tutduğumuz yol düzgün yol olub. Təbii ki, bu amil də bizə kömək etdi. Saysız insan, oxucu var idi ki, onlar üçün müxalifət, iqtidar yox, Azərbaycan və dövlətçilik vardı. Biz Sovetlərdən ayrılmış respublika idik və respublikamızda kifayət qədər rusdilli oxucu vardı. Onlar da müstəqil düşüncəli, vahid ideologiyaya xidmət edən bir mətbu orqanın olmasını arzu edirdilər. "Novoe vremya" qəzeti yarandığı gündən rusdilli oxucuların informasiya tələbatını təmin edə bildi.



*"Novoe vremya" qəzeti yarandığı gündən rusdilli oxucuların informasiya tələbatını təmin edə bildi"*

**- Sizin qəzet nəşrə başladığı dövrdə Azərbaycan SSRİ-nin tərkibindən bir neçə il idi ki, çıxmışdı. Yalnız Azərbaycanda deyil, keçmiş ittifaq ölkələrinin çoxunda rus dilinə münasibət elə də xoş deyildi. Belə bir dövrdə "Novoe vremya"nı nəşr etmək çətin olmadı ki?**

- Çox maraqlı məsələyə toxundunuz. Təbii ki, o dövrdə bizə çox böyük təpki var idi. Çox təəssüflər olsun ki, bizə qarşı təpki göstərən insanların çoxunun özü rus dilində təhsil almışdı, övladları da rus sektorunda oxuyurdu. Onlar küçələrdə "rus dilini dayandırmaq lazımdır" deyə qışqırır və öz uşaqlarını isə rus sektorunda oxudurdular. Bu, kütləyə yönəlmiş bir fikir idi. Bu insanlar kütləyə belə deyir, tribunalardan rus dilini söyür, evdə isə həyat yoldaşı və uşaqları ilə rus dilində danışırdılar. Bu çox ağır proses idi. Belə bir şəraitdə işləmək çətin idi. Amma biz buna baxmayaraq, fəaliyyətimizi davam etdirirdik. Azərbaycanın daxilində insanlar var idi ki, onlar bizim qəzeti mütəmadi olaraq izləyir, alırdılar. Bilirsiniz ki, Bakı həmişə beynəlmiləl şəhər olub. Əsası uzun əsrlər əvvəl qoyulan multikulturalizm və tolerantlıq ənənələri bu gün Azərbaycanda uğurla davam etdirilir. Multikulturalizm Azərbaycanda özünün ən yüksək inkişafını tapıb. Həmin dövrdə insanlar vardı ki, rus dilində informasiya almaq, oxumaq istəyirdilər. Bizim yazdıqlarımıza tələbat böyük idi. Kimin nə deməsindən və danışmasından asılı olmayaraq, əsas odur ki, oxucunun, xalqın rəğbətini qazanasan. Biz də bu rəğbəti qazana bildik.

Biz o zaman həm Azərbaycan, həm də rus dilində qəzet çap edirdik - "Yeni zaman" və "Novoe vremya". Deyim ki, 2004-cü ilə qədər iki dildə həftəlik və gündəlik qəzet nəşr edən ilk redaksiya olmuşuq. Sadəcə olaraq, 2004-cü ildə maddi çətinliklər üzündən seçim qarşısında qaldıq. Bilirsiniz ki, o zaman qəzetlərdə söyüş, şər kampaniyası baş alıb gedirdi, çox təəssüf ki, Azərbaycandilli oxucular daha çox onları oxuyurdular. Amma rusdilli oxucular üçün belə qalmaqallı yazılar, şər-böhtan, söyüş kampaniyası maraqlı deyildi, onlar daha çox intellektual yazılar, analizlər, şərhlər tələb edirdilər. Biz də qərara gəldik ki, qəzetin rus dili variantını saxlayaq. Çünki Qarabağ probleminin rus dili vasitəsilə beynəlxalq aləmə çatdırılması daha vacib olduğu üçün, biz bu yolu tutduq. Biz əvvəldən qarşımıza məqsəd qoymuşduq ki, nə müxalifətin, nə də iqtidarın tərəfindəyik, bizim yolumuz maarifçilik yoludur. Azərbaycan variantında başqa qəzetlərin getdiyi yolu gedə bilmədik, kimlərinsə tapşırıqlarını icra edə bilmədik. Qəzetin rus dili variantını saxlamaqda peşman deyilik. Allah imkan versə, qəzetimizin Azərbaycandilli variantını da bərpa etmək niyyətindəyik. Biz azərbaycanlıyıq və öz dilimizi çox sevirik, amma bizim dilimizin auditoriyası rus dilinin auditoriyası qədər geniş deyil. Böyük bir ərazidə insanlar rus dilində oxuyub, yaza bilirlər. Azərbaycan dövlətinin, xalqının çox ağır problemi olan Dağlıq Qarabağ problemi haqqında Azərbaycan dilində hamı yazırdı və bu yalnız Azərbaycandilli auditoriyaya çatırdı. Amma bu problem haqqında rus dilində yazanda onu daha çox oxucu oxuyurdu. Ölkəmizdə fəaliyyət göstərən diplomatik korpuslarda təmsil olunanlar da rus dilini bilirlər. Bizim üçün Azərbaycanın qlobal problemi olan Dağlıq Qarabağ probleminin dünyaya çıxması və dünyada yayılması üçün rus dilinin böyük əhəmiyyəti var. Bizim qəzetdə Qarabağ problemi, Azərbaycanın ədalətli mövqeyi, erməni terrorizmi, erməni terror təşkilatlarının təhlükəsi haqqında silsilə yazılar, araşdırmalar, analizlər nəşr edilib. Bu yazılar Rusiyada və digər xarici ölkələrdə oxunub, bu gün də oxunur.

**- Şakir müəllim, qəzetinizin 20 illik yubileyi münasibətilə çox mötəbət təşkilatlardan, şəxsiyyətlərdən təbriklər almısınız. Sözsüz ki, bu həm Sizin gördüyünüz işlərə verilən qiymətdir, eyni zamanda, sizin fəaliyyətinizə stimul verən bir amildir...**

- Bəli. Həqiqətən də biz çox nüfuzlu qurumlardan, insanlardan çoxlu sayda təbrik aldıq. Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Putin tərəfindən yaradılan "Rus Fondu"nun rəhbərliyi, Rusiyanın xaricdə yaşayan rus icmalarına rəhbərlik edən qurumunun rəhbərliyi, Rusiyanın Azərbaycandakı icmasının rəhbəri deputat Mixail Zabelin, Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov, Ukrayna, Moldova Jurnalistlər birliklərindən təbriklər almışıq. Onlar bizim qəzeti oxuyan qurumların, şəxslərin qəzetimizə münasibətinin təzahürüdür. Azərbaycandan da kifayət qədət təbrik almışıq. İTAR-TASS agentliyi və "Komsomolskaya pravda" qəzeti də bizi təbrik etməyi unutmayıb. Bu təbriklər bizim 20 illik fəaliyyətimizə verilən qiymətdir.

**- Bu gün ölkədə nəşr edilən nüfuzlu qəzetlərin çapında dövlət dəstəyinin xüsusi rolu var. Bu barədə nə deyərdiniz?**

- Azərbaycan Prezidentinin mətbuata göstərdiyi diqqət və qayğı təqdirəlayiqdir. Bu gün Azərbaycan qəzetlərinin davamlılığına səbəb Azərbaycan Prezidentinin sərəncamı ilə yaradılan Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondudur. Bəzən bu qurum haqsız tənqidlərə məruz qalır. Amma iş olan yerdə nöqsan da olur. 9 il bundan əvvəlki ilə müqayisədə qəzetlər qarşısına daha mühüm şərtlər qoyulur ki, o şərtləri ödəməyən nəşrlərin çapına maliyyə ayrılmır. Bu çox yaxşı bir haldır. Ələnmə getməlidir ki, Prezidentin mediaya ayırdığı vəsaitdən yararlananlar həqiqətən də effektiv iş görmüş olsunlar. Bu gün çap mətbuatı Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun hesabına yaşayır. Mənə bu qurumdan nə tapşırıq verilir, nə də kimsə deyir ki, filan məsələni bu cür yaz. Əsla. Bu günə qədər mən belə məsələ ilə üzləşməmişəm. "Novoe vremya" qəzeti ictimai rəydə olan qəzetdir və Fonda da ona maliyyə ayırıb. Qəzetlər bu vəsaitlə yaşayır, amma bu da əbədi ola bilməz. Qəzetlərin gəlir yeri olmalıdır. Bu gəlir yeri də reklamla bağlıdır. Qəzetlərin reklam bazarı olduqdan sonra KİV-in fəaliyyəti daha geniş və sərbəst olur. Təəssüf ki, bizdə reklam bazarı yoxdur.

**- İstərdim ki, sonda qəzetin kollektivi haqqında danışaq. Sizinlə birgə bu uzun yolu gələnlər varmı?**

- Deyim ki, bizim qəzet bir məktəb olub. Əvvəllər 60-a yaxın işçimiz vardı. Məni sevindirən odur ki, "Novoe vremya" məktəbindən çıxanlar arasında baş redaktor, müxtəlif dövlət qurumlarının mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışırlar. Mənə zövq verən odur ki, onlar hansı məktəbdən çıxdıqlarını unutmurlar. Bütün bunlarla bərabər, bu 20 ildə bu yolu mənimlə addım-addım gələn əməkdaşlarımız var. Onlar qəzetin nüvəsdir. Yeni işçilərimiz də var, amma qəzetin 20 illik əsas nüvələri var ki, biz bu gün birgəyik. Bir baş redaktor olaraq həmişə işçilərimlə maraqlanmışam, onların qayğılarına diqqət yetirmişəm.

Əl-ələ verib oxucuların maraqlarını təmin edən, onların tələblərinə cavab verən qəzet buraxırıq. Bizim məqsədimiz qərəzdən uzaq, Azərbaycanın dövlət maraqlarına xidmət edən bir mətbu orqanın fəaliyyətini davam etdirməkdir.

***İradə SARIYEVA***

# Azərbaycanda Prezidentdən xəbərsiz yol tikinti-söküntüsünə qərar verənlərin məqsədləri...

**Oktyabrın 28-də Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub. Prezident İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolu 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir.**



Uzunluğu 19 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol üzərində xeyli yol nişanı və göstərici lövhə, siqnal dirəkləri və 8 avtodayanacaq quraşdırılıb.

Avtomobil yolunun 10-cu kilometrliyində Qaraçay çayı üzərində dördaşırımlı yeni körpü tikilib, Zalamçay çayı üzərində isə ikiaşırımlı körpü təmir edilib. Bu yolun inşası əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin, kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına şərait yaradacaq.

Prezident İlham Əliyevə rayonun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi barədə də məlumat verilib. Qeyd olunub ki, 11 min əhalinin yaşadığı və 8 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 18 kilometrdir.

Prezident İlham Əliyev Şamaxı-İsmayıllı yolunun yenidən qurulması barədə göstəriş verərək deyib: "Mən indi Bakı-Şamaxı yolu ilə gəlmişəm. Bu yol yaxşıdır. Vaxtilə göstəriş vermişdim ki, yol dörd zolağa genişləndirilsin, demək olar başa çatıb. Amma Şamaxı-İsmayıllı yolu bərbad vəziyyətdədir. Belə bir yolla biz barışa bilmərik. Niyə məlumat vermirsiniz bu haqda?

## *Rasim Quliyev: "Burada yerli icra hakimiyyətlərinin, turizmə cavabdeh olan qurumların da təqsiri var"*

Biz indi kənd yollarını magistral yollar səviyyəsində inşa edirik. Amma şəhərlərarası, xüsusilə turizm zonasına gedən yol belə bərbad vəziyyətdə qala bilməz. Təkliflər verin ki, biz Şamaxı-İsmayıllı yolunu investisiya proqramına salaq. Gələn il gərək Şamaxı-İsmayıllı yolu istifadəyə verilsin, özü də yüksək səviyyədə".

Göründüyü kimi, Prezident yenə də məmurların ciddi nöqsanını aşkar edib. Məlum olub ki, Azərbaycanın iki rayonunu və ən əsası da turistik zonasını birləşdirən Şamaxı-İsmayıllı yolu çox bərbad vəziyyətdədir. Ölkə başçısı yerində bu halla tanış olmasaydı, nə baş verəcəkdi? Proses belə də davam edəcəkdi? İlham Əliyevin iradından məlum oldu ki, o, yolun real vəziyyəti barədə məlumatsız olub. Bir daha ortaya çıxır ki, məmurlar lazımi informasiyanı dövlət başçısına zamanında çatdırmırlar. Bəzən elə hallar olur ki, ölkə başçısının məmurların qarşısına qoyduğu tapşırıqlar zamanında yerinə yetirilmir. Ölkə başçısının zəngin qrafiki var. Hər bir xırda detalla maraqlanmağa onun zamanı yetmir. Məmurların yol verdikləri bu cür nöqsanlar daha hansı fəsadlara səbəb ola bilər və məmurların bu istiqamətdə məsuliyyətlərini artırmaq üçün nələr edilməlidir?

*"İnşallah, aparılan islahatların fonunda biz məmurlarda bu keyfiyyətlərin də inkişaf etdiyini görəcəyik"*

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bizim Prezidentimiz hər zaman xalqın gələcəyini nəzərə alan addımlar atır: "Çörçilin belə bir sözü var: "siyasətçilər gələcək seçkilərdə nəticə əldə etmək üçün çalışırlar, ancaq dövlət xadimləri xalqın gələcəyini firavan etməyə çalışırlar. Məhz bunu əsas gətirərək, qeyd edirəm ki, bizim Prezidentimiz xalqın gələcəyini nəzərə alan addımlar atır. Bizm Prezident dünya liderləri arasında çox nadir olan keyfiyyətə malikdir. O, xalqa tam açıqdır. Cənab İlham Əliyev ən ucqar rayonlarda ictimaiyyət nümayəndələri ilə görüşür, onların problemlərini dinləyir. Həmçinin, bölgələrimiz üçün zəruri olan infrastruktur layihələrinin təməlinin qoyulmasında və açılışında iştirak edir. Məhz buna görə də xalq onu lider kimi qəbul edir. Cənab Prezidentin əldə etdiyi bu nailiyyət həm də xalqla hakimiyyətin birliyini möhkəmləndirir. Tam məsuliyyəti ilə demək olar ki, bizim məmurlar bu xüsusiyyətlərə görə cənab Prezidenti qabaqlaya bilmirlər. Çox təəssüflər olsun ki, bizim məmurların çoxunda yaradıcılıq, təşəbbüskarlıq imkanları məhduddur. Əksinə, onlar sırf icraçılıq funksiyasını yerinə yetirirlər. Bu da ümumi inkişafa töhfə vermir. Hansısa bir rayonda yol infrastrukturunun mühüm hissəsi yaddan çıxaraq təmirsiz qalıbsa, bu yalnız yol təsərrüfatına cavabdeh olan məmurun günahı deyil. Burada yerli icra hakimiyyətlərinin, turizmə cavabdeh olan qurumların da təqsiri var. Birbaşa aidiyyətləri olmasa da, dolayı yolla öz təkliflərini irəli sürə bilərdilər".

Rasim Quliyevin sözlərinə görə, cənab Prezidentin bu iradından bütün məmurlar pay götürməlidir: "Yalnız icraçılıqla iş bitmir. Elə detallar var ki, ölkə rəhbərliyinin gözündən yayına bilər. Bunları da məmurlar deməli, təşəbbüslə çıxış etməlidirlər. Məmurlar bu çeviklikə ayaqlaşmağa çalışmalıdırlar. İnşallah, aparılan islahatların fonunda biz məmurlarda bu keyfiyyətlərin də inkişaf etdiyini görəcəyik".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident Azərbaycana valyuta gətirəcək bir sahəni də göstərdi - qızılgül yağı...

**İnsanların ən çox sevdiyi, buna görə də bir-birinə hədiyyə etdiyi gül həm də toy, nişan mərasimlərində istifadə edilir. Eləcə də güldən dekorasiya məqsədilə geniş çeşiddə yararlanırlar. Bu gün ölkədə yeni salınan və yaxud abadlaşdırılan parklarda müxtəlif gül növlərindən istifadə edilir.**



Eyni zamanda, bu da bir faktdır ki, çiçək artıq, sadəcə, bəzək deyil, qazanc gətirən bir təsərrüfat növü kimi iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilib.

Prezident İlham Əliyev dəfələrlə çıxışında qeyd edib ki, ölkəmizdə gülçülüyün inkişafı vacibdir və bunun üçün müasir texnologiyalar əsasında fəaliyyət göstərən istixanalar yaradılmalıdır.

Məlumdur ki, XX əsrin 70-ci illərində Azərbaycanda böyük gülçülük təsərrüfatları olub. Həmin dövrdə Bakı kəndlərindən Zabrat, Maştağa, Nardaran, Bilgəh, Mərdəkan və Şüvəlanda gülçülük sovxozları fəaliyyət göstəriblər. Hansı ki, onlar həm Azərbaycanı, həm də SSRİ-ni güllə təmin edirdilər. Məlumdur ki, Şəki-Zaqatala bölgəsində isə respublikada ilk dəfə olaraq sənaye xarakterli gülçülük təsərrüfatı yaradıldı.

Ölkəmiz müxtəlif güllərin yetişdirilməsi ilə bağlı əlverişli iqlim şəraitinə malikdir. Bir vaxtlar ölkəmizdə də gül istehsalında olan inkişaf ixrac üçün geniş imkanlar açıb. Ölkəmizdə bu sahənin inkişafı üçün imkanlar var və bir çox çiçək növünü yetişdirmək mümkündür. Hətta elə güllər var ki, yalnız Azərbaycanda bitir.

## *Fuad İbrahimov: "Qızılgül yağı olduqca bahalı məhsuldur və yağın ixracı ölkəyə xeyli valyuta gətirər"*

Güldən tək dekor məqsədilə ilə deyil, eyni zamanda, kosmetika sahəsində də istifadə olunur. Gülçülük sektorunun inkişafı nəticəsində ölkəmizdə qızılgül yağı sahəsi də inkişaf edir.

"AzRose" Məhdud Məsuliyyətli Cəmiyyətinin bir müddət öncə yaydığı məlumatda qeyd olunur ki, şirkət xaricə qızılgül yağı ixrac etməyə hazırlaşır. Fransa, İsveçrə, Almaniya və Bavariyaya qızılgül və lavanda yağları "Made in Azerbaijan" brendi altında, "Roseoil" və "Lavandoil" adı ilə ixrac ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olub. "AzRose" MMC-nin direktoru Nicat Mirzəyev bildirib ki, ölkəmizdə ənənəvi və ixrac potensialı yüksək sahələrdən biri də gülçülükdür.

Tanışlıq zamanı Azərbaycan Prezidenti İlham Əliyevin regionların mövcud iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, ənənəvi sahələrin inkişafı ilə bağlı verdiyi tapşırıq və göstərişlərə uyğun olaraq, gülçülüyün inkişafı istiqamətində də zəruri işlər görüldüyünü bildirib. Həmçinin, bu sahədə əldə olunan məhsullara dünya bazarında böyük tələbat olduğu dilə gətirilib.

*"Made in Azerbaijan" brendi adı altında istehsal olunan qızılgül yağı rəqabətyönümlü olmalıdır"*

Statistik göstəricilərə görə, dünya üzrə ildə təxminən 3 ton qızılgül yağı istehsal olunur. Bu bazarda Azərbaycanın da təmsil olunması ölkəmizə yeni valyuta axınını təmin edəcək, digər tərəfdən də "Made in Azerbaijan" brendinin dünyada daha da məşhurlaşmasına səbəb olacaq.

Məlumdur ki, qızılgül yağı dünyada ən gəlir gətirən sahələrdən biri hesab olunur. Bu sahənin inkişaf etdirilməsinin vacibliyi barəsində danışan iqtisadçı-ekspert Fuad İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, istehsal olunan hər bir məhsul rəqabətqabiliyyətli olmalıdır. Nəzərə almaq lazımdır ki, gülçülük elə bir sahədir ki, bu sahəyə tələbat var. Tələbat olmaqla yanaşı, xarici bazarda bu sahə üzrə öz sözünü demiş ölkələr var: "Məlumdur ki, qızılgül yağı olduqca bahalı məhsuldur və yağın ixracı ölkəyə xeyli valyuta gətirər. Onu da nəzərə almaq lazımdır ki, hər ölkədə qızılgül yağına tək parfümeriyada deyil, eyni zamanda, qida və farmokoloji sahələrdə tələbat var. Vaxtilə Azərbaycanda qızılgül yağı daha çox istehsal olunurdu. Eyni ənənənin yenidən bərpa olunması gözlənir. Adıçəkilən məhsul rəqabətqabiliyyətli olarsa, xarici bazarda özünə yer tutar".

Həmsöhbətimiz onu da vurğuladı ki, qızılgül yağının ixracını genişləndirmək üçün qeyd olunan sektoru daha da inkişaf etdirmək lazımdır: "Bəllidir ki, qızılgül yağına tək parfümeriyada deyil, eyni zamanda, qida və farmokoloji sahələrdə tələbat var. Vaxtilə Azərbaycanda qızılgül yağı daha çox istehsal olunurdu. Eyni ənənənin yenidən bərpa olunması gözlənir. Adıçəkilən məhsul rəqabətqabiliyyətli olarsa, xarici bazarda özünə yer tutar".

***Günel CƏLİLOVA***

# Prezident bölgə əhalisi üçün ev turizminin müstəsna əhəmiyyətindən danışdı

***Elçin Rüstəmov:** ”...ev sahibləri xarici turistlər üçün ölkənin xoş simasını təbliğ etməli, digər regionlardan gələnlərlə isə sıx daxili əlaqələr yaratmalıdırlar”*

**Son dövrdə Azərbaycanda müxtəlif turizm istiqamətləri üzrə infrastrukturun yaradılması xarici turistlərin respublikamıza marağını artırır. Ölkəmizdə turizmin əksər növünün, o cümlədən, kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s. inkişafı üçün geniş imkanlar mövcuddur.**

Dünya turizm sənayesində kənd, fərdi ev turizmi mühüm yer tutur. Xüsusilə böyük meqapolislərin əhalisi üçün şəhərin səs-küyündən uzaqda, sakit yaşıl guşədə istirahət etmək çox cəlbedicidir.

Kənd turizminin formalarından biri turistlərin kənd təsərrüfatı məhsullarının becərilməsi ilə tanış olması və bu prosesdə iştirakıdır. Turizmin belə forması kənd turizminin bir növü olan aqroturizm də adlanır. Turistlər səfər dövründə kənd yerlərində tarlalara, əkin sahələrinə və digər kənd təsərrüfatı obyektlərinə gedərək kənd təsərrüfatı məhsullarının əkilməsi, becərilməsi və məhsulların yığılması proseslərində birbaşa iştirak edirlər. Bu işlər təcrübə qazanmaq, kənd təsərrüfatı məhsulları istehsalının sirlərini öyrənmək və ya asudə vaxt keçirmək məqsədilə icra edilir. Turistlər kənd əhalisinin ənənəvi olaraq məskunlaşdığı yerlərdə, əkin sahələrində, yaxud kənd evlərində yerli və ənənəvi məhsullardan hazırlanan yeməklərlə qidalanırlar. Eyni zamanda, səfərdə turistlər festivallar və başqa mədəni tədbirlərdə iştirak edə bilərlər. Turistlər balıq ovunda iştirak edib, təbiətin qoynunda gəzə, mənzərəli və görməli yerlərlə tanış ola bilərlər.

Yerli və xarici turistlərin bir qismi kənd, fərdi ev turizminə üstünlük verir. Onlar otellərdə istirahətə deyil, təbiət qoynunda dincəlməyə üstünlük verir.

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 28-də "Azər-xalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimində filialın kollektivi ilə görüşən zaman bildirib ki, bu il təkcə otellərdə 150 min qonaq istirahət edib. Fərdi evlərdə də bəlkə o qədər qonaq istirahət edib: "Bu, vətəndaşlara da böyük maddi dəstəkdir. İmkanı olan vətəndaşlar öz evlərinin bir hissəsini kirayəyə verirlər, pul qazanırlar. Kəndlilər də öz məhsullarını satırlar. Ona görə turizmin inkişafı əhalinin çox böyük bir hissəsini əhatə edir".

Fərdi ev, kənd turizminin inkişafının əhəmiyyəti haqqında danışan turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, kənd ərazilərinin landşaft, klimatoloji, balneoloji, tarixi-mədəni və digər amilləri insanların fiziki və mənəvi bərpasına təsir edən qüvvələrdir. Ölkəmizin iri sənaye mərkəzlərindən və xaricdən gələn insanlarda adi kənd evində yaşayıb istirahət etmək arzusu böyükdür: "Belə turistlər kənd həyatını dadmaqla yanaşı, müvafiq səviyyədə xidmətin olmasını da istəyirlər. Bizim kənd evlərində isə əksər hallarda bu cür şərait olmur. Doğrudur, turistlərin istəyinə uyğun şəraitin yaradılması, onlara müvafiq xidmətin göstərilməsi müəyyən maddi xərc tələb edir. Lakin bu xərclər artıqlaması ilə ev sahibinə qayıda bilər. Kənd evinin sahibi turistlərə hər cür rahatlığı olan ev və yemək təqdim etməklə bərabər, onlara bələdçilik, tərcüməçilik, nəqliyyat xidməti göstərmək, ev heyvanları və quşları bəsləmək üçün qısamüddətli imkan yaratmaqla əlavə xidmət haqqı əldə edə bilər".




*”Bu həm kənd təsərrüfatı üçün yaxşı mənbədir, həm də yeni iş yerləri və kəndli üçün əlavə qazancdır”*

Həmsöhbətimizin sözlərinə görə, əyalətlərdə turizmin bu növünün inkişaf etdirilməsində kənd əhalisinə yardımçı olmaq, onları müəyyən stereotiplərdən uzaqlaşdırmaq üçün yerli TV və mətbuatda çıxışlar etmək, kənd turizminin onlara və yaşadıqları ərazilərə maddi və ekoloji cəhətdən xeyirli olmasını mütəmadi izah etmək lazımdır: "Ev sahiblərinin üzügülərliyi, interyer, otaqların qıcıqlandırıcı olmayan boya rəngi, həyətin səliqə-sahmanı, yaşayış yerlərinin, xüsusilə yardımçı otaqların təmizliyi xeyli önəm daşıyır. Turistlərin yerləşəcəyi otaqlarda əlavə yataq dəstləri, dəsmallar və s. olmalıdır. Onların istirahəti sakitlik şəraitində keçməlidir. Sabitlik amili qonaq evinin qiymət siyasətinə də aid edilir. Xidmətlərin qiymətlərini mövsümün ortasında dəyişmək son dərəcə arzuedilməzdir".

Kənd turizminin inkişafında istənilən nəticəni əldə etmək üçün kənd əhalisinin bu yöndə maarifləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün Avropa ölkələrinin təcrübəsindən yararlanmaq lazımdır. Kənd turizminin inkişaf istiqamətlərinin müəyyən edilməsi, xidmət müxtəlifliyinin təmini, meydana çıxan maneələri dəf etmək, təcrübə mübadiləsi həyata keçirmək məqsədilə inkişaf etmiş ölkələrdə mütəmadi olaraq kənd turizm konfransları, seminarlar təşkil olunur. Ev sahiblərinə turistləri qəbul etmək, onlara göstərilən xidməti düzgün qurmaq, əlavə xidmətlər və turistlərin sakit, rahat istirahəti yollarını göstərmək məqsədilə təlimlərin keçilməsi önəmlidir".

Ekspert hesab edir ki, kənd turizmi yalnız biznes növü deyil, eyni zamanda, ictimai diplomatiya vasitəsidir. İnsanlar otellərdə qapalı şəkildə qalmaq istəmirlər, onlar yerli sakinlərlə münasibət qurmaq, yerli məişət və adət-ənənələrlə tanış olmaq istəyirlər. Bu səbəbdən ev sahibləri xarici turistlər üçün ölkənin xoş simasını təbliğ etməli, digər regionlardan gələnlərlə isə sıx daxili əlaqələr yaratmalıdırlar.

**Onun fikrincə, bu sahənin inkişaf etməsi üçün kəndlərə gedən yollar yaxşı vəziyyətdə olmalıdır. Turistlər həm nəqliyyat vasitəsi, həm də piyada olaraq istədikləri ünvana gedib çata bilmələri üçün yollar rahat olmalıdır: "Bununla yanaşı, həm bələdiyyələr, həm turizm qurumları, həm də icra orqanları turizmin bu sahəsinin inkişafı istiqamətində birgə fəaliyyət göstərməlidirlər. Bu həm kənd təsərrüfatı üçün yaxşı mənbədir, həm də yeni iş yerləri və kəndli üçün əlavə qazancdır".**

***Günel CƏLİLOVA***

**Ölkə iqtisadiyyatında həyata keçirilən islahatlar qarşıdakı dövr ərzində Azərbaycanı iqtisadi müstəvidə daha güclü mövqeyə çıxarmaqla yanaşı, onun maliyyə durumuna da əhəmiyyətli dərəcədə təsir göstərəcək. Belə görünür ki, Azərbaycanın enerji ilə yanaşı, gələn il ərzində qeyri-neft sektoru üzrə də ixrac etdiyi məhsulların həcmində əhəmiyyətli artım gözlənir. Bu isə ölkəyə daxil olan valyutanın miqdarını xeyli artıracaq.**

*"Mərkəzi Bank müxtəlif iqtisadi rıçaqları işə salmalıdır ki, dövriyyədə böyük həcmdə pul vəsaiti olmasın"*

# Azərbaycana dollar axını və manatın bu dəfə revalvasiya təhlükəsi...

***Fuad İbrahimov:** "Ölkənin ixracdan əldə etdiyi gəlirlərin həcmi artdıqca, manata yönələn təzyiqlər artır"*



Həmçinin, bu və gələn il ərzində Azərbaycanın turizm üzrə gəlirlərinin 3-4 milyard dollar arasında dəyişməsi, belə vəziyyətdə isə manata qarşı təzyiqlərin daha da güclənməsi gözlənir. Yəni baş verənlər manatın kursunun güclənməsi istiqamətində əlavə təzyiqlər yaradır. Artıq manat devalvasiya yox, revalvasiya, yəni məzənnənin yenidən qaldırılması risqi ilə üz-üzədir.

O da məlumdur ki, indiki mərhələdə manatın məzənnəsinin güclənməsi məqsədəuyğun deyil. Ona görə ki, real sektorun qorunması, xüsusən də qeyri-neft sektorunun inkişafı, ixracın artırılması baxımından yerli valyutanın möhkəmlənməsi məqsədəuyğun sayılmır. Bunu Mərkəzi Bankın sədri Elman Rüstəmovun son açıqlamaları da təsdiq edir: "Bu gün hesab edirik ki, revalvasiya Azərbaycan iqtisadiyyatı üçün yararlı deyil, zərərli ola bilər".

Ancaq bütün bunlara baxmayaraq, gələn il valyuta gəlirlərinin artacağı proqnozlaşdırılır. Belə olan halda, manatın məzənnəsinin möhkəmlənməsi baxımından nə gözləmək olar? Bu yöndə hansı işlərin görülməsinə eytiyac var?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimov buna bir neçə kontekstdən yanaşdı. Onun sözlərinə görə, manatın ucuzlaşması prosesi kimi, möhkəmlənməsi prosesi də gedə bilər: "Azərbaycanın ixracdan əldə etdiyi gəlirlərin həcmi artdıqca, manata yönələn təzyiqlər artır. Ölkəyə daha çox vəsait daxil olduqca, bu, milli valyutanın möhkəmlənməsinə münbit şərait yaradır. Manatın möhkəmlənməsi bizə lazımdırmı? Təbii ki, yox. Bunun yeganə cavabı həm də odur ki, manatın məzənnəsi optimal olmalıdır. Optimal o deməkdir ki, makroiqtisadi səviyyənin ən uyğun rəqəmi müəyyənləşdirilməlidir. Yəni Mərkəzi Bank müxtəlif iqtisadi rıçaqları işə salmalıdır ki, dövriyyədə böyük həcmdə pul vəsaiti olmasın.

MB-nin əlində bununla bağlı xeyli alət var. Bu nöqteyi-nəzərdən narahatlıq üçün elə də əsas yoxdur. Hətta biz bilsək ki, bu gün manatın məzənnəsinin möhkəmlənməsi üçün yetərincə məqam yaranıb, o zaman iqtisadi rıçaqları işə salmaqla vəziyyətə nəzarət etmək olar. Bu zaman manatın məzənnəsini optimal səviyyədə saxlaya bilərik. Bu gün Azərbaycan üçün ən optimal variantlardan biri 1 dolların 1.65-1.75 manat olmasıdır. Yəni məzənnənin bu aralıqda dəyişməsi daha məqsədəuyğundur. Bu variant bizim üçün ən optimaldır. Çünki iqtisadiyyat, bank sistemi buna uyğunlaşıb. Məzənnə ilə bağlı bir elastiklik yaranıb".

***Vidadi ORDAHALLI***

**Xəbər verildiyi kimi, gələn il yanvarın 1-dən şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə, o cümlədən, foto, audio-video sahəsində məşğul olan şəxslərin və iaşə obyektlərinin müştərilərinə xidmət göstərən fiziki şəxslərin (ofisiantın) fəaliyyətə başlayanadək "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə cərimələr tətbiq ediləcək.**

*"...həmin dövriyyənin vergiyə cəlb edilməsi ilə bağlı bəzi çətinliklər var"*

# Restoranlarda vergi sənədi olmadan yüzlərlə işçi çalışır - fotoqraf, rəqqasə, müğənni...

***Vüqar Bayramov:** "Şadlıq sarayları xidmət göstərən zaman öncədən qeydiyyatdan keçməli, daha sonra sadələşmiş vergi üzrə qəbzə malik olmalıdır"*



Bu, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.

Bu şəxsləri "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edən işəgötürənə (vergi orqanında uçotda olan sifarişçiyə) hər bir belə şəxs üzrə təqvim ili ərzində bu hala birinci dəfə yol verdikdə 2000 manat, ikinci dəfə yol verdikdə 4000 manat, üç və daha çox dəfə yol verdikdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcək.

Onu da qeyd edək ki, şadlıq sarayında hər hansı bir işçinin bu sənədi olmadan çalışdığı müəyyən olunarsa, bu zaman məsuliyyəti həmin şadlıq sarayının rəhbərliyi daşıyır və buna görə o cərimə oluna bilər. Şadlıq sarayında çalışan işçilər fəaliyyətə başlayanadək sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz əldə etməlidirlər.

Ekspertlərin sözlərinə görə, yeni qaydanın tətbiqi bəzi şəxslərin vergidən yayınmasının qarşısını alacaq. Vergi ödənilmirsə, cəzalandırma olmalıdır. Vergilər Məcəlləsinə edilən dəyişikliklərə əsasən, vergini ödəməyənlər və fəaliyyətini gizlədənlər qanun qarşısında məsuliyyət daşıyacaqlar.

İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, Konstitusiyaya uyğun olaraq, hər bir vətəndaş dövlət qarşısında öhdəsinə düşən vergini ödəməlidir. Onun sözlərinə görə, şadlıq sarayları xidmət göstərən zaman öncədən qeydiyyatdan keçməlidirlər. Qeydiyyatdan keçdikdən sonra sadələşmiş vergi üzrə qəbzə malik olmalıdırlar: "Əvvəlki dövrlərdə, sadəcə, qeydiyyatdan keçməklə, yəni VÖEN-ə sahib olmaqla xidmət göstərmək mümkün idi. Daha sonra isə xidmətə görə dövriyyə elan olunurdu və dövriyyə elan olunduqdan sonra vergi hesablanırdı".

İqtisadçının sözlərinə görə, şadlıq sarayları sahəsində vergi dövriyyəsi kifayət qədər böyükdür. Amma həmin dövriyyənin vergiyə cəlb edilməsi ilə bağlı bəzi çətinliklər var. Yalnız o şəxslər sözügedən xidmətləri göstərə biləcək ki, onların məhz həmin qəbzi olsun".

***Günel CƏLİLOVA***

# Ümumi türk dili əlifbası müzakirələri yenidən qızışıb...

**Bir kökdən, eyni mədəniyyətdən rişələnən türk xalqları bu gün yenidən birləşməyə başlayıblar. Uzun illər bir-birindən ayrı salınan türkdilli xalqlar artıq öz ortaq tarixini, dilini, əlifbasını formalaşdırmaqdadırlar. 70 il SSRİ tərkibində olmuş türkdilli respublikaların ortaq dilinin və əlifbasının yaradılması aktuallaşıb.**

## *Firudin Cəlilov: "Birinci Türkoloji Qurultayda qərar qəbul edilmişdi ki, bütün türk respublikaları ortaq əlifbaya keçsin"*

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu mətbuata açıqlamasında bildirib ki, hazırda dünya türkoloqları ortaq türk əlifbasında 34 hərfin olmasını təklif edirlər.

M.Nağısoylunun sözlərinə görə, ortaq türk əlifbası bir dəfə hazırlanaraq qəbul edilib. 1992-ci ildə Türkiyədə keçirilən tədbirdə Azərbaycanın sabiq təhsil naziri Firudin Cəlilov tərəfindən hazırlanmış latın qrafikalı əlifba bütün türkdilli dövlətlər üçün ortaq əlifba kimi qəbul olunub: "Amma bu əlifba sonra tətbiq edilməyib. Həmin əlifbada ən çox Azərbaycan dilinin əlifbasındakı hərflər əsas götürülüb. Çünki Azərbaycan dilində 32 hərf var, digər türkdilli ölkələrdə isə hərflərin sayı azdır. Məsələn, Azərbaycan dilində olan "ə", "x" hərfi və səsi o biri əlifbalarda yoxdur. İndi isə əlifbanın 34 hərfdən ibarət olması təklif edilir. Orada da qıpçaq qrupu dillərinin xüsusiyyəti nəzərə alınır. Əlifbada xüsusilə də "sağır nun" hərfinin olması təklif edilir. Özbəklər də, türkmənlər də "nq" səsini işlədirlər, yəni onlar "mənə" deyil, manqa deyirlər, bu "n"nın üstündə dalğalı işarə qoyulur. Klassik mətnlərdə də bu hərf var".

Filologiya elmləri doktoru, professor, tanınmış türkoloq-alim, Azərbaycanın sabiq təhsil naziri F.Cəlilov "Bakı-Xəbər"ə bildirdi ki, vaxtilə onun təklifilə ortaq türk əlifbası türkdilli respublikalar tərəfindən qəbul edilib. "O əlifbanı mən yaratmamışam. Həmin əlifba 1939-cu ilə kimi Azərbaycanda işlənirdi. Mən, sadəcə olaraq, 1992-ci ildə İstanbulda türk ölkələrinin ortaq türk əlifbası simpoziumunda həmin əlifbanın ortaq türk əlifbası kimi qəbul edilməsini təklif etdim. Bu simpoziumda türkdilli ölkələrdən gələn alimlər iştirak edirdilər. Bu simpoziumda 34 hərfdən ibarət ortaq türk əlifbası qəbul olundu. Bu əlifbada elə hərflər var ki, bizim dildə onun səsi yoxdur. Biz o səsləri işlətmədiyimiz üçün onları Azərbaycanda işlənən əlifbaya salmadıq. Məsələn, biz dağ deyirik, qıpçaq qoluna aid türklər tau deyir. Deyək ki, qazaxlarda hər hansı səs yoxdursa, amma əlifbada var, o da onu işlətmir. Bu mənada, hər bir türk xalqının konkret olaraq 28, 29, 30, 31, 32 say həcmində əlifbası olur. Amma bunların hamısı ortaq türk əlifbasının hərfləridir. Ona görə ki, türk xalqları bir-birinin yazılarını oxuyub başa düşsünlər. Bu mənada, o vaxt həmin dövrdə o əlifba qəbul edildi. 1991-ci ilin payızında mən həmin əlifbanı bizim parlamentdən keçirdim. O gün-bu gün, biz artıq ortaq əlifbanı işlədirik".

Ortaq türk əlifbasının bütün türk dövlətləri tərəfindən geniş tətbiq edilməsinə gəlincə, F.Cəlilov qeyd etdi ki, 28 ildir bu, Azərbaycanda tətbiq olunur və onun işləkliyi təmin edilir. Digər türk respublikalarına gəlincə, F.Cəlilovun sözlərinə görə, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Tatarıstan da bu əlifbaya keçib. "34 hərfdən ibarət həmin əlifbaya tatarlar da keçdi, düzdür, bir müddət onlara bu əlifbadan istifadə etmək qadağan edildi. Azərbaycandan fərqli olaraq, ortaq türk əlifbasına keçən türk respublikalarının bəzilərində həmin əlifbaya müəyyən dəyişikliklər edilib. Bu dəyişiklikləri edən türk dövlətləri yeni anlayıblar ki, ortaq əlifba kimi Azərbaycanda tətbiq olunan əlifbanı götürməlidirlər. Biz o vaxt Türkiyənin əlifbasını da ortaq əlifbaya daxil etdik ki, fərq yaranmasın. Türkiyə alimləri də o vaxt dedilər ki, biz də bura 3-4 hərf əlavə edəcəyik ki, həmin ortaq əlifba olsun. Ancaq onlar indiyə qədər bunu edə bilməyiblər".



*"Azərbaycandan fərqli olaraq, ortaq türk əlifbasına keçən türk respublikalarının bəzilərində həmin əlifbaya müəyyən dəyişikliklər edilib"*

F.Cəlilov mövcud ortaq türk əlifbasının bütün türk respublikalarında işləkliyinin tam təmin edilməsinin vacib olduğunu dedi. O hesab edir ki, ortaq əlifba, ortaq dil və ortaq tarixin formalaşdırılması əlaqələrimizi daha da dərinləşdirir. "Bilirsiniz, ortaq türk əlifbasının tətbiq edilməsi türk ölkələrinin birliyi yolunda atılan ilk addımdır. Bu birliyi ifadə edən müxtəlif məsələlər var və ilk pillədə əlifba dayanır. İkinci pillə təhsildir, 3-cü pillə parlamentlər arasındakı əlaqədir, 4-cü iqtisadi əlaqələrdir və s. Bunlara nail olmaqla ortaq türk birliyinə addımlamış oluruq. Amma ilk addım əlifba ilə bağldır.

1992-ci ildə Qırğızıstanın paytaxtı Bişkekdə təhsil nazirlərinin zirvə toplantısı keçirilirdi. Orada biz türk ölkələri olaraq ortaq dərsliklər yaratmağı, hazırlamağı qərara almışdıq. Yəni eyni dərslik bütün türk ölkələrində tədris edilsin. Mən Bakıya qayıtdıqdan sonra ortaq türk coğrafiyasının proqramını və dərsliyini hazırladıq. Bildiyim qədər, indiyə qədər də o tədris olunur. Amma bu təkcə bizdə tətbiq olundu, başqa türk ölkəlrində bu olmadı. Sonra mən işdən ayrıldım və o iş yarımçıq qaldı. İndi isə eşitdiyimə görə, ortaq türk tarixi yaradılır".

Azərbaycanın həmişə türkoloji düşüncənin beşiyi başında dayandığını qeyd edən F.Cəlilovun sözlərinə görə, ortaq türk əlifbasının da bütün türk respublikalarında tətbiqi ideyası Azərbaycanda səsləndirilib: "İlk Türkoloji Qurultay da 1926-cı ildə Bakıda keçirilib. Hələ Birinci Türkoloji Qurultayda qərar qəbul edilmişdi ki, bütün türk respublikaları ortaq əlifbaya keçsin. O vaxt komissiya yaradıldı və layihə hazırlandı, bütün türk dövlətləri ortaq əlifbaya keçdi. 1939-cu ilə qədər bu əlifbadan istifadə edildi. Sonra Stalinin göstərişi ilə Azərbaycanda və digər türk respublikalarında kiril əlifbasına keçildi".

***İradə SARIYEVA***

**Azərbaycanın sosial müdafiə sistemində baş verən qanun pozuntuları, korrupsiya halları zaman-zaman gündəmə gətirilib. Bu sahədə mövcud olan problemlərdən biri də saxta əlillik dərəcələrinin təyin edilməsi ilə bağlıdır.**

# Saxta əlil çıxarılmış 2500 fakta görə nazirliyin köhnə rəhbərliyinin hüquqi məsuliyyəti...

## *Davud Rəhimli: "Bu saxtakarlığa yol verənlər müvafiq qanunvericilik çərçivəsində məsuliyyətə cəlb edilməlidirlər"*




Bu günlərdə Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bəyan edib ki, 2500-dən artıq saxta əlillik dərəcəsi almış şəxs aşkar olunub. Onun sözlərinə görə, Səhiyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə işçi qrupu tərəfindən bu il 2500-dən artıq saxta əlillik dərəəsi almış şəxs müəyyən edilib: "Onlarla bağlı ciddi tədbir görülüb və dövlət büdcəsinə illik 13 milyon manatdan artıq qənaət edilib".

Onu da qeyd edək ki, bütün bu saxtakarlıqlar əvvəlki rəhbərlik dövründə olub. 2013-cü ilin oktyabrından 2018-ci ilin aprelinə qədər ƏƏSMN-ə Səlim Müslümov rəhbərlik edib. O, nazir olanda bir sıra gurultulu vədlər verirdi. İlk baxışdan belə təəssürat yaranırdı ki, sözügedən sahədə nöqsanlar azalacaq. Ancaq tam əksinə oldu. S.Müslümov nazir təyin olunduqdan sonra müxtəlif xidmətlərin elektronlaşması istiqamətində ciddi addımlar atılsa da, bütövlükdə, sistemdə kök salmış korrupsiyanı aradan qaldırmaq mümkün olmadı.

Sistemdəki problemləri Hesablama Palatasının apardığı yoxlamalar da üzə çıxardı. Məlum oldu ki, 2017-ci ildə sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar da nəzərə alınmaqla, əlilliyə görə pensiya və müavinət alanların ümumi sayı Qubadlı (12 faiz), Daşkəsən (11,2 faiz), Kəlbəcər (11 faiz), Yardımlı (10,6 faiz), Gədəbəy (9,5 faiz), Cəlilabad (8,8 faiz), Ağcabədi (8,6 faiz), Mingəçevir (8,5 faiz), İsmayıllı (8,3 faiz) rayonlarında ölkə üzrə göstəricidən (6,1 faiz) xeyli yüksəkdir.

Bütün hallarda, 2500-dən artıq saxta əlillik dərəcəsinin aşkar edilməsi ciddi rəqəmdir. Bu o deməkdir ki, bütün bunlara görə əvvəlki rəhbərlik hüquqi məsuliyyət daşıyır. Belə olan halda nəyə görə onlar cinayət məsuliyyətinə cəlb edilmirlər? Onlar buna görə məsuliyyətə cəlb edilməlidirlərmi? Ekspertlər buna necə yanaşırlar?

*"Nəzərə almaq lazımdır ki, saxta əlillik dərəcəsi alanlar həqiqi əlilliyi olan şəxslərin haqqına girirlər"*

Məsələyə münasibət bildirən Əlil Təşkilatları İttifaqının sədri Davud Rəhimlinin sözlərinə görə, bir belə saxta əlillik faktına görə cavabdeh şəxslər məsuliyyətə cəlb edilməlidirlər: "Aydın məsələdir ki, ortada saxtakarlığa yol verən şəxslər var. Saxtakarlıqda əli olanların törətdikləri tam sübut olunarsa, o zaman onlar məsuliyyətə cəlb edilməlidirlər. Çünki ortada ağır cinayət tərkibi elementləri var və buna yol verənlər məsuliyyətə cəlb edilməlidirlər. Çünki istənilən halda bu cinayətdir. Ona görə də bu saxtakarlığa yol verənlər müvafiq qanunvericilik çərçivəsində məsuliyyətə cəlb edilməlidirlər. Nəzərə almaq lazımdır ki, saxta əlillik dərəcəsi alanlar həqiqi əlilliyi olan şəxslərin haqqına girirlər. Əlilliyi olan şəxslər üçün müəyyən təminatlar var.

Həmin təminatlar dövlət tərəfindən ödənilir və son illər bununla bağlı ayrılan vəsaitin həcmi xeyli artıb. Bu təminatları qarşılamaq üçün dövlət büdcəsinin də müəyyən həddi var. Belə olan halda yaxşı olardı ki, həqiqi əlilliyi olan şəxslər bu təminatlardan, imtiyazlardan istifadə etsinlər, saxta əlillik dərəcəsi alanlar yox. Başqa bir tərəfdən, saxta əlillik alanların olması cəmiyyətdə müəyyən narazılıq yaradır. Ən başlıcası, belə hallar həqiqi əlilliyi olanlara mənəvi baxımdan mənfi təsir edir".

***Vidadi ORDAHALLI***

**Bu gün holland pendiri dünya bazarında kütləvi istehlakçı marağı cəlb edən məhsullardan biridir. İstehlak bazarında ən çox alıcısı olan holland pendirlərinin müxtəlif çeşidlərindən istifadə edən insanlar minlərlədir.**

# Məşhur holland pendirlərində qorxulu virus tapıldı - Azərbaycan bazarında nələr olacaq...

## *Eyyub Hüseynov: "Bu gün ciddi yoxlama aparılmalıdır ki, tərkibində təhlükəli bakteriya aşkarlanan həmin pendir növlərindən bizim bazarda var, yoxsa yox?"*



Rusiya bazarında da geniş yayılan və istehlakçıların daim istifadə etdikləri holland pendir növlərində insan sağlamlığına zərər vuran təhlükəli viruslar aşkarlanıb. "Roskontrol" Ümumrusiya İstehlakçılar Birliyinin ekspert mərkəzinin həyata keçirdiyi monitorinqlər zamanı məşhur holland pendirinin tərkibi araşdırılıb və bu məhsulda təhlükəli bakteriya olduğu aşkarlanıb. Rusiya mətbuatının yazdığına görə, ümumilikdə, mütəxəssislər altı çeşiddə pendiri sınaqdan keçiriblər. "Qırmızı Qiymət", "VkusVill", "Izbenka", "Birinci iş", "Sırobo-qatov", "Hər gün" "Valio və digər pendir markalarında virus tapılıb. Artıq sözügedən pendir markaları Rusiyada "qara siyahı"ya daxil edilib.

Bu gün Azərbaycan bazarında da müxtəlif çeşid və markalar adı altında holland pendiri satılır. Azərbaycan bazarında satılan holland pendir növlərində insan sağlamlığı üçün zərərli olan bakteriyalar ola bilərmi? Ümumiyyətlə, bu kimi məhsulların monitorinqi keçirilirmi?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bizimlə söhbətində bildirdi ki, Azərbaycan bazarlarında satılan holland pendir çeşidlərində də təhlükəli virusların olması istisna edilmir, sadəcə, bu istiqamətdə monitorinqlər aparılmadığı üçün, əlimizdə hər hansı bir fakt yoxdur: "İlyarımdan çoxdur ki, cənab Prezident istehlak bazarına nəzarət edən Dövlət Agentliyinin yaradılması ilə bağlı fərman imzalayıb. Təəssüflər olsun ki, indiyə qədər Prezident fərmanı icra olunmayıb və Nazirlər Kabineti bu agentliyi yaratmağa tələsmir. Qida Təhlükəsizliyi Agentliyi malların, məhsulların təhlükəsizliyini yoxlayır. İstehlak bazarlarına daxil olan məhsulların tərkibini, keyfiyyətini isə yeni yaradılması nəzərdə tutulan Dövlət Agentliyi həyata keçirməlidir. O agentliyin də əvəzində indiyə qədər Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti fəaliyyət göstərib. Qanuni əsası olmadan bu xidmət indi də fəaliyyət göstərir. Lakin heç bir iş görmür, araşdırma aparmırlar, onların normal bir işi göz önündə deyil. Ona görə də bazarda yoxlamaların tam məhdudlaşdırılması, eyni zamanda, biznes qurumlar üçün yaradılan kifayət qədər rahat şərait biznes qurumlarının istehlakçıların hüquqlarını pozmasına gətirib çıxarır.

*"...bu tam mümkündür"*

İstisna edilmir ki, Rusiyada aşkarlanan həmin məhsullardan Azərbaycanda da ola bilər. Lakin bu o demək deyil ki, holland pendirlərinin hamısı təhlükəlidir. Gətirilən məhsulun bir qismi təhlükəli və keyfiyyətsiz ola bilər. Bu gün ciddi yoxlama aparılmalıdır ki, tərkibində təhlükəli bakteriya aşkarlanan həmin pendir növlərindən bizim bazarda var, yoxsa yox? Əlbəttə, o pendir növləri bizim bazara da gəlib çıxa bilər, bu tam mümkündür".

***İradə SARIYEVA***

№ 192 (4090) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

30 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# ABŞ-da məşhur Ruşmor dağındakı otağın sirri...

**Ruşmor dağı ABŞ-a gedənlər üçün önəmli turist dayanacaqlardan biridir. Filmlərdə belə, adı keçən bu məkanın içində "gizli" bir otağın olduğunu bilirdinizmi?**



Amerika prezidentlərinin heykəllərindən düzəldilmiş Ruşmor dağında yerləşən bu otağın nə üçün tikildiyi barədə hələ də dəqiq məlumatlar yoxdur. Güman edilir ki, burada ölkənin təhlükəsizliyinə aid məsələlər müzairə edilir. 1920-ci ildən başlayan proje çərçivəsində dağda "müzakirə otağı" inşa edilib. Heykəltəraş Qutzon Borglum və komandası 1927-1941-ci illər ərzində bu ikon olan tikilini indiki halına gətirib. Əslində, prezidentlərin yanına 5-ci adamın da heykəli əlavə edilməli idi. Lakin çox qarışıq olduğu üçün bu həyata keçirilməyib. Əslində, prezidentlərin yanına 5-ci adamın da heykəli əlavə edilməli idi. Lakin çox qarışıq olduğu üçün bu həyata keçirilməyib. 5-ci heykəlin əlavə edilməsi fikrindən imtina edildikdən sonra gizli otağın inşasına başlanılıb. Bu otaqa həm də ABŞ tarixinin ən gizli məlumatları saxlanılır. Ən müəmmalı məsələlərdən biri də odur ki, layihənin rəhbəri Poor Qutzon bütün dizaynı hazır edib, bitirdikdən sonra müəmmalı şəkildə ölüb. Onun necə və hansı şəraitdə öldüyü heç kimə məlum deyil. Layihənin tikintisi 90-cı illərə qədər davam edib.

Bu gün ABŞ-ın bəzi rəmzi sənədləri də bu tikilidə saxlanılır. İstiqlaliyyət bəyannaməsi, ABŞ Konstitusiyası, insan haqları ilə bağlı bir çox tarixi sənədlər burada titandan olan seyfin içərisində saxlanılır. Turistlərin bu otağa girişi qadağandır. Həmin otaq o qədər uzaq məsafədə yerləşir ki, piyada getməklə o məsafəyə çatmaq mümkün deyil.

## Elan

Mikayılov Faiq Mail oğlunun hərbi bileti və müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Eqanov Fikrət Teymur oğluna məxsus, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş Bağlar massivində yerləşən 0.12 hektar №4743 bağ sahəsinin orderi itdiyi üçün etibarsız sayılır.

Sadiqov Səyyaf İbrahim oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, ev 136 A, mənzil 20 ünvanına məxsus order (N011716) itdiyi üçün etibarsız sayılır.

Həsənova Gülsabah Sahil qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır (AZE N15258602, Hacıqabul RPŞ).

Quluzadə Cavidan Adil oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılov İsmayıl Qardaşxan oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov küçəsi, məhəllə 523, ev 15, mənzil 8 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Zeniyev Ruslan Vidadi oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Hüseynov Kamil Famil oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Görədil baş massivi, 1760 a saylı bağ sahəsinin 0034533 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Poşenko Viktor Prokofyeviçin adına, Bakı şəhəri, Sabuncu rayonu, Bakıxanov qəsəbəsi, R.Qəmbərov küçəsi, ev 28, mənzil 8 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Haqverdiyeva Ləman Natiq qızına Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Nar" Naxçıvanda təqaüd proqramının qaliblərini təbrik etdi!

**İnformasiya texnologiyaları sahəsinin inkişafına və bu sahədə yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət ayıran "Nar"mobil operatoru Naxçıvan Dövlət Universitetinin tələbələri üçün elan etdiyi təqaüd proqramının nəticələrini elan edib. Belə ki, informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan, xüsusi fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbəyə 2019-2020 tədris ilində "Nar" tərəfindən 200 AZN məbləğində aylıq təqaüd ayrılıb.**

"Azerfon"un baş icraçı direktoru Qunnar Panke təqaüd proqramının qalibləri ilə görüşərək onları təbrik edib və gələcək təhsillərində uğurlar arzulayıb. O bildirib ki, Azərbaycanda gənc nəslin informasiya texnologiyaları sahəsinə marağının artması və karyeralarını bu yöndə qurmaları ölkədə ümumi ekosistemə, xüsusən də telekommunikasiya bazarının inkişafına öz müsbət təsirini göstərəcək.

Xatırladaq ki, "Nar" artıq ikinci ildir rabitə sahəsində gələcəyin yerli peşəkarlarının yetişdirilməsinə dəstək məqsədilə Naxçıvanda təhsil alan tələbələr üçün təqaüd proqramı təşkil edir.

"Nar" KSM strategiyası çərçivəsində müxtəlif yaş qruplarından və sosial təbəqələrdən olan şagird və tələbələrin maarifləndirilməsi, dünyagörüşünün artırılması və analitik düşüncə qabiliyyətinin inkişafı istiqamətində bir çox layihəyə imza atıb. "Nar"ın KSM layihələri barədə daha ətraflı məlumatı nar.az səhifəsindən əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.





**Qoç** - Təbii zəka və anadangəlmə intellektual qabiliyyətlər bu gün işinizə yararlı olmayacaq. Rahatlıqla xatirələrə dala bilərsiniz. Maliyyə və işgüzar planlarınız barədə inandığınız, etibar etdiyiniz şəxslərdən savayı kimsəyə danışmayın.



**Buğa** - Başqalarının problemlərinin həllinə bu gün xeyli vaxt sərf etməli olacaqsınız. Sizin üçün xüsusi əhəmiyyət kəsb etməyən məsələlər də səy və zəhmət istəyəcək. Böyük ümid bəslədiyiniz layihəni reallaşdırmağa başlayın.



**Əkizlər** - Bacarıq və imkanlarınızdan artıq işə başlamaq istəsəniz, uğursuzluğa düçar olacaqsınız. Ağır problem varsa, onu həll etmək üçün dostlar və yaxınlarınızın yardımlarına ehtiyac yarana bilər.



**Xərçəng** - Yeniliklərə və dəyişikliklərə hazırsınızsa, gün sizin üçün uğurlu ola bilər. Uzaqdan yaxşı xəbərlər və ya təklif gələ bilər. İşdə əlavə tapşırıq istisna olunmur. Bu, sizin üçün sərfəli əlavə gəlir mənbəyi də ola bilər.



**Şir** - Çalışmaq və fəaliyyət göstərmək üçün əla gündür. Gərgin durumlara rəğmən istənilən sahədə məhsuldar çalışaraq ən yaxşı məziyyətlərinizi nümayiş etdirə bilərsiniz. Eqoizm, təşəxxüs və özünütərifə aludə olmayın.



**Qız** - Mümkün olmayan heç bir iş və ya çətılması irreal hədəf yoxdur. İstədiyinizi əldə etmək üçün səylə çalışın. Ailə üzvləri və qohumlarla münasibətlərdə irəliləyiş, yaxşılığa doğru dəyişikliklər istisna deyil.



**Tərəzi** - Günün ilk yarısı ən müxtəlif işlər üçün münasibdir. Bu zaman planlarınızı reallaşdırmaqla yanaşı, parlaq ideyanızı da həyata keçirə bilərsiniz. Yaxın adamların və iş yoldaşlarının ünvanına sərt tənqidlərdən çəkinin.



**Əqrəb** - Bu gün yaxın ətrafınızın köməyindən faydalanmaq ehtiyacı yaransa belə, təkbaşına fəaliyyət göstərməyə çalışacaqsınız. Belə etməyin, səhv buraxmayın. Mənasız işlərə və məntiqsiz yönlərə izafi qüvvə sərf etməyin.



**Oxatan** - Yeni tanışlıqlar, rəğbət bəslədiyiniz insanlarla ünsiyyət üçün əlverişli gündür. İlk dəfə gördüyünüz insanla asanlıqla dil tapacaqsınız. Qohumlara baş çəkmək, ailənin qayğılarını çözmək üçün yararlı gündür.



**Oğlaq** - Gün ərzində təmkinli və səbrli davranmaq çətin olsa da, bunu edin. Yaxın ətrafınızdakı insanlara soyuqqanlı olduğunuzu nə qədər çox nümayiş etdirməyə çalışsanız, onlar sizi bir o qədər hirsləndirməyə, qıcıqlandırmağa səy edəcəklər.



**Dolça** - Başqalarının problemlərinə sakit və rəvan yanaşsanız, bu gün sakit keçəcək. Fəqət, başqaları üçün uğur və rəvanlıq istəsəniz, sizi gərgin mübarizə və çətinliklər gözləyir.



**Balıqlar** - Maddi problemlərin həlli ilə məşğul olmağa tənbəllik etməyin: ətrafdakı insanlarla münasibətiniz dərəcədə belə davranışdan asılıdır. Maliyyə işlərini qaydaya salmaq üçün maksimum səy göstərin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyada qum zərrəsi ölçüsündə ən kiçik kamera hazırlandı

**Smartfonlara quraşdırılan kameraların ölçüsü hər il kiçilir. Amma çəkiliş üçün olduqca kiçikölçülü tamamilə başqa tip qurğular mövcuddur.**



"OmniVision" şirkətinin "OmniVision OV6948" kamerası məhz bu tipə aiddir. "İctnews.az" bildirir ki, bu kameranın özəlliyi onun ölçüsüdür. "OV6948" kamerası öz ölçüsünə görə (0,575 x 0,575 x 0,232 mm) qum zərrəsinə oxşayır. Buna baxmayaraq, kamera "RGB Bayer" çipinin köməyi ilə 40 min piksel təsvir ölçüsündə rəngli görüntü çəkə bilər. "OmniVision" şirkətinin yeni kamerası smartfonlarda deyil, cərrahi alətlərdə tətbiq üçün nəzərdə tutulub.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.